YENİ AZƏRBAYCAN
31 iyul 2026-cı il, cümə
№ 134 (7201)
Qiyməti 60 qəpik
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.



Milli azadlıqdan şirin nemət yoxdur!

# Prezident və Birinci xanım Qırğızıstanda...




Bax səh. 2

## Dünya idman ailəsinin Azərbaycana artan inamı

Bax səh. 4

## Azərbaycan - Mərkəzi Asiya: Tarixdən qaynaqlanan, bu günün reallıqları ilə şərtlənən sarsılmaz dostluq



Bax səh. 3

## Azərbaycanın fəal parlament diplomatiyası...

Bax səh. 5

## Xarici dövlət borcumuz azalıb

Bax səh. 5

## İyul görüşü müharibəni bitirə bilərmi?

Bax səh. 6

## Hörmüz boğazı uğrunda geosiyasi mübarizə

Bax səh. 6

## “Avropa sağa dönür”



Bax səh. 7

## Ermənistan yenidən dilemma qarşısında...



Bax səh. 6

# Prezident və Birinci xanım Qırğızıstanda...





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 30-da Qırğız Respublikasına dövlət səfərinə gəlib.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Qırğız Respublikasının Prezidenti Sadır Japarov və birinci xanım Ayqul Japarova qarşılayıblar.







## Prezident İlham Əliyev Qırğızıstan, Özbəkistan və Tacikistan prezidentləri ilə birlikdə Çolpon-Ata şəhərində Qolf Klubun açılışında iştirak edib

İyulun 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qırğız Respublikasının Prezidenti Sadır Japarov, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev və Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon ilə birlikdə Çolpon-Ata şəhərindəki "Issyk-Kul Golf Resort" kompleksində Qolf Klubun açılışında iştirak edib.

Əvvəlcə "Issyk-Kul Golf Resort" kompleksi və Qolf Klub barədə videoçarx nümayiş olundu.

Qolf Klub İssık-Kul gölünün sahilində "Issyk-Kul Golf Resort" çoxfunksiyalı turizm kompleksinin ərazisində yerləşir. Bu kompleksin ümumi sahəsi 120 hektardır. Bunun da 103 hektarı Qolf Klubun payına düşür.

Bu layihənin icrası yalnız yay aylarında deyil, digər fəsillərdə də İssık-Kula turist axınını cəlb etmək üçün böyük rol oynayacaq. Belə ki, burada ilin 10 ayında qolf oynama üçün meydança qurulub. Zəruri infrastrukturun yaradıldığı Qolf Klubun ərazisində 80 yerlik mehmanxana da qonaqların ixtiyarına veriləcək. Burada qolf akademiyasının yaradılması və müxtəlif səviyyəli qolf turnirlərinin keçirilməsi nəzərdə tutulur.

Turizm, idman, sağlamlıq və əyləncə meyarlarını özündə birləşdirən "Issyk-Kul Golf Resort" kompleksində Qolf Klubla yanaşı, ümumilikdə dörd və beşulduzlu bir neçə hotel, restoranlar, çimərlik sahələri olacaq.

Qırğızıstan Qolf Federasiyasının prezidenti Xomeni Erqeşov çıxış edərək dövlət başçılarını salamladı.

Sonra Qırğızıstan Prezidenti Sadır Japarov çıxış etdi.

Daha sonra dövlət başçıları "Issyk-Kul Golf Resort" kompleksinin ərazisini gəzdilər, burada qolf oyununun rəmzi başlama mərasimində iştirak etdilər.



## Mərakeşin Kralı Əlahəzrət VI Məhəmmədə

Əlahəzrət,

Əziz Qardaşım,

Mərakeş Krallığının milli bayramı münasibətilə Sizə və Sizin simanızda qardaş xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Biz tarixi köklərə və xoş ənənələrə əsaslanan Azərbaycan-Mərakeş münasibətlərinə xüsusi əhəmiyyət veririk.

Əminəm ki, ölkələrimizi və xalqlarımızı birləşdirən dostluq əlaqələrinin daha da möhkəmləndirilməsi, qarşılıqlı faydalı əməkdaşlığımızın müvəffəqiyyətlə davam etdirilməsi istiqamətində bundan sonra da birgə səylər göstərəcəyik.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, ali dövləti fəaliyyətinizdə uğurlar, qardaş xalqınıza daim əmin-amanlıq və rifah arzulayıram.

Hörmətlə,

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

***

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində və "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 10 iyul tarixli 442-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə qərara alıram:

1. "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 610 (Cild I); 2024, № 1, maddələr 24, 33, № 4, maddə 387, № 8, maddə 945; 2025, № 4 (I kitab), maddə 340, № 6, maddə 561, № 7, maddə 633, № 11, maddələr 1036, 1038; 2026, № 1, maddələr 24, 41, № 3, maddə 237; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 6 may tarixli 661 nömrəli və 8 may tarixli 663 nömrəli fərmanları) 4-cü hissəsindən "208-ci (Xarici valyuta vəsaitlərini xaricdən qaytarmama)," sözləri çıxarılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. yayılması qadağan edilən informasiyanın süni intellekt texnologiyaları və digər texniki vasitələrin köməyi ilə avtomatik aşkarlanmasını və internet informasiya ehtiyatlarında yerləşdirilməsinin qarşısının alınmasını təmin etmək məqsədilə "Yayılması qadağan edilən informasiyaya nəzarət" informasiya sisteminin yaradılması barədə təkliflərini yeddi ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində və "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 10 iyul tarixli 442-VIIQD nömrəli Qanunundan və bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yayılması qadağan edilən informasiyanın süni intellekt texnologiyaları və digər texniki vasitələrin köməyi ilə avtomatik aşkarlanması və internet informasiya ehtiyatlarında yerləşdirilməsinin qarşısının alınması üçün tədbirlər görsün.

4. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi "Yayılması qadağan edilən informasiyaya nəzarət" informasiya sisteminin yaradılması, aparılması və saxlanması xərclərinin, həmçinin bu Fərmanın 3-cü hissəsində nəzərdə tutulan tapşırığın icrasının maliyyələşdirilməsi məsələlərinin həll edilməsi üçün müvafiq tədbirlər görsün.

5. Bu Fərmanın 1-ci hissəsi 2027-ci il yanvarın 1-dən qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 30 iyul 2026-cı il**

***

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

"Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində olan "Regional Su Meliorasiya Xidməti" və "İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" publik hüquqi şəxslərin yenidən təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 20 fevral tarixli 600 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2026, № 2, maddə 119) 3.3-cü bəndində aşağıdakı dəyişikliklər edilsin:

1. 3.3.2-ci yarımbəndə "sədrinin" sözündən sonra "və digər üzvlərinin" sözləri əlavə edilsin.

2. 3.3.3-cü yarımbənd ləğv edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 30 iyul 2026-cı il**

# Azərbaycan - Mərkəzi Asiya: Tarixdən qaynaqlanan, bu günün reallıqları ilə şərtlənən sarsılmaz dostluq

Son vaxtlarda Azərbaycanın çoxvektorlu xarici siyasət kursunda Mərkəzi Asiya dövlətləri ilə əlaqələrin intensivləşməsi xüsusi diqqət çəkir. Əlamətdar haldır ki, bu əlaqələrin genişlənməsinə respublikamızda və Xəzərin digər sahillərindəki ölkələrdə həm dövlətlər və liderlər tərəfindən güclü siyasi iradə göstərilir, həm də buna cəmiyyətlər səviyyəsində böyük istək var.

Beləliklə, qarşılıqlı münasibətlərin əhatə dairəsi sürətlə genişlənir. Müqayisə üçün bildirək ki, əvvəllər ölkəmizlə bu region dövlətləri arasında münasibətlər ikitərəfli formatlarda və ayrı-ayrı beynəlxalq təşkilatlar çərçivəsində inkişaf etdirilirdi. 2025-ci ilin noyabr ayında isə Azərbaycan Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündə quruma tamhüquqlu üzv qəbul edilib. Bundan başqa, respublikamızın Amerika Birləşmiş Ştatları ilə Mərkəzi Asiya dövlətlərini birləşdirən C5+1 formatında yer alması perspektivləri də kifayət qədər böyükdür. Artıq bu platformanın Azərbaycan vasitəsilə C6+1 formatında genişləndirilməsi ilə bağlı müzakirələr intensivləşib.

Bütün bunlar isə ona dəlalət edir ki, Azərbaycan və Mərkəzi Asiya dövlətlərini yalnız coğrafiya birləşdirmir. Burada həmçinin bütün Avrasiya üçün müstəsna önəm daşıyan bir sıra mühüm faktorlar da mühüm önəm daşıyır. Təsadüfi deyildir ki, Prezident İlham Əliyev IV Şuşa Qlobal Media Forumunda sualları cavablandırarkən bildirib ki, Mərkəzi Asiya Azərbaycanla vahid bir iqtisadi və siyasi məkanda birləşir.

## Əlaqələrin xüsusi mahiyyəti

Azərbaycanla Mərkəzi Asiya dövlətləri arasında münasibətlər xüsusi xarakter daşıyır. Bu ölkələri çoxəsrlik ortaq tarix, mənəvi və mədəni irs, qardaşlıq, dostluq, həmrəylik birləşdirir. Bu əlaqələr əsrlər boyunca qorunub saxlanılıb, zənginləşdirilib və hazırda da davam etdirilir. Dövlət başçıları arasında yaranan səmimi münasibətlər, çoxsaylı mədəni tədbirlər, intensivləşən qarşılıqlı səfərlər bunun əyani təsdiqidir. Prezident İlham Əliyev 2025-ci il 16 noyabr tarixində baş tutan Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündə söylədiyi nitqində maraqlı statistika təqdim edərək bildirib: "Son illər yüksəksəviyyəli qarşılıqlı səfərlər müntəzəm xarakter alıb. Son üç ildə mən Mərkəzi Asiya ölkələrində 14 dəfə səfərdə olmuşam. Bu müddət ərzində həmkarlarım ölkəmizə 23 dəfə səfər ediblər".

Bu statistika özlüyündə Azərbaycanla Mərkəzi Asiya dövlətləri arasında siyasi əlaqələrin nə qədər yüksək səviyyədə olmasının göstəricisidir. Dövlət başçıları arasında yaranan xoş münasibətlər Azərbaycanla Mərkəzi Asiya ölkələri arasında müttəfiqlik və strateji tərəfdaşlıq, o cümlədən birgə investisiya fondlarının yaradılması haqqında müqavilə və bəyannamələr imzalanması ilə daha da genişlənir. Həmçinin mütəmadi olaraq mədəniyyət günləri, sərgilər, konsertlər keçirilir ki, bu da xalqlarımızı və cəmiyyətlərimizi bir-birinə daha da yaxınlaşdırır.

Mərkəzi Asiya dövlətləri Azərbaycanın üzləşdiyi Qarabağ münaqişəsinin lap əvvəlindən ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə dəstək veriblər. Postmüharibə dövründə də isə onlar işğaldan azad olunmuş ərazilərimizin bərpasına öz qardaşlıq dəstəklərini göstərirlər. Prezident İlham Əliyev IV Şuşa Qlobal Media Forumunda bildirib ki, Qarabağın bərpasında bizə birinci yardım edən məhz Özbəkistan Prezidenti olmuşdur. Füzuli şəhərində Mirzə Uluqbəy adına gözəl, böyük məktəb inşa edilmişdir və Şavkat Miromonoviçlə birlikdə biz o məktəbin açılışını qeyd etmişik. Yəni ondan sonra digər qardaş dövlətlər də bizə hədiyyələr etmişlər - Qazaxıstan, Qırğızıstan, Türkmənistan. Amma birinci yardım məhz Özbəkistandan gəlib. Eyni zamanda Qarabağda dost ölkələrin iştirakı ilə birlikdə ayrı-ayrı sənaye layihələri icra edilir.

## 5+1 formatında iqtisadi əlaqələrin genişlənməsi perspektivləri

5+1 formatı və yaxud Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Şurası artıq Azərbaycan da daxil olmaqla üzv dövlətlərin gələcək koordinasiyalı fəaliyyətləri üçün müstəsna önəm daşıyan bir platformadır. Bu gün Mərkəzi Asiya dinamik inkişaf və səmərəli əməkdaşlıq məkanıdır, burada davamlı artım və rifah üçün yeni imkanlar açılır. Region sürətlə qlobal iqtisadiyyata inteqrasiya olunur: investisiya cəlbediciliyi artır, üçüncü ölkə bazarlarına ixrac imkanları və tranzit potensialı genişlənir. Region ölkələri arasında illik qarşılıqlı ticarət 10 milyard dolları ötüb. Müəyyənləşdirilən prioritetlər bir sıra mühüm istiqamətləri əhatə edir. O cümlədən ortamüddətli dövrdə qarşılıqlı ticarət həcmini və ümumi xarici ticarət dövriyyəsini 1,5-2 dəfə artıracaq ticarət, iqtisadi və investisiya əməkdaşlığının keyfiyyətcə yeni səviyyəsinə çatdırmaq hədəflənib. Həmçinin inzibati maneələrin aradan qaldırılması, vergi və gömrük prosedurlarının sadələşdirilməsi, azad iqtisadi və sənaye zonalarından birgə istifadə məsələləri gündəmdədir. 2035-ci ilə qədər Ticarət və İqtisadi Əməkdaşlıq üzrə Hərtərəfli Regional Proqramın hazırlanması və qəbul edilməsi ticarət həcmlərinin əhəmiyyətli dərəcədə artması üçün əlverişli şərait yaradacaq. Eləcə də təhlükəsizliyin və sabitliyin təmin edilməsi, terrorizm və ekstremizm təhdidlərinə, sərhədyanı cinayətkarlığa qarşı mübarizə üçün sistemli tədbirlər görülür.

Bir sözlə, Mərkəzi Asiya + formatında qarşılıqlı fəaliyyətin gücləndirilməsi perspektivi böyükdür. Azərbaycanın bu formata qoşulması ilə regionun qlobal birlikdə səsinin daha da əhəmiyyətli olacağına böyük əminlik var. "Azərbaycan artıq tamhüquqlu üzv kimi bu Məşvərət Şurasına qoşuldu. Mən fəxri qonaq qismində iki dəfə Zirvə görüşlərinə dəvət edilmişdim, son dəfə isə artıq Azərbaycan-Mərkəzi Asiya vahid bir Məşvərət Şurası yaradılmışdır. Bu, bizi çox qürurlandırır, çox sevindirir. Bu, deyə bilərəm ki, nadir bir hadisədir. Çünki biz coğrafi nöqteyi-nəzərdən, təbii ki, Cənubi Qafqazda yerləşirik. Amma mədəni, tarixi, etnik əlaqələr o qədər güclüdür və siyasi əlaqələr o qədər çoxşaxəlidir ki, dost Mərkəzi Asiya ölkələri bizi qəbul etməyə qərar verdilər. Bu gün bu, geosiyasi və geoiqtisadi əlaqələrə də müsbət təsir göstərəcək", - deyə Prezident İlham Əliyev vurğulayıb.

Azərbaycanın Mərkəzi Asiya + formatına qoşulması yalnız siyasi nöqteyi-nəzərdən önəm daşımır. Bunun eyni zamanda, bağlantılar, nəqliyyat, logistika layihələrinin icrası istiqamətində də çox böyük əhəmiyyəti var. Orta Dəhliz Azərbaycanla Mərkəzi Asiya dövlətlərini birləşdirən mühüm nəqliyyat marşrutudur. Bu marşrut dost dövlətlərə həm öz məhsullarını, həm də tranzit yüklərini Azərbaycan üzərindən Avropa bazarlarına çıxarmağa imkan yaradır.

Gələcəkdə isə Azərbaycanın qətiyyətli səyləri sayəsində Orta Dəhlizin yeni qolu yaradılacaq. Söhbət Zəngəzur dəhlizindən (TRIPP marşrutundan) gedir. Ötən il avqustun 8-də Azərbaycan, Ermənistan və ABŞ liderlərinin iştirakı ilə Vaşinqtonda baş tutan görüşdə yeni marşrutun yaradılması ilə bağlı prinsipial razılıq əldə olunub və hazırda zəruri infrastrukturun yaradılması ilə bağlı müvafiq prosedurlar həyata keçirilir. Güclü və məsuliyyətli dövlət olan Azərbaycan yeni nəqliyyat bağlantısının ölkəmizin ərazisindən keçən hissəsində avtomobil yolunun və dəmiryolu xəttinin inşasını intensiv şəkildə davam etdirir. Hazırda layihələrin icrası son mərhələdədir. Öz növbəsində Mərkəzi Asiya dövlətləri də yeni marşrutun yaradılmasına güclü dəstək göstərirlər.

İndiyədək Azərbaycanla Mərkəzi Asiya dövlətləri arasında güclü enerji əməkdaşlığı qurulub. Artıq bərpaolunan enerji seqmenti ilə qarşılıqlı enerji əməkdaşlığının yeni bir səhifəsi açılmaqdadır. Həm Azərbaycan, həm də Mərkəzi Asiya dövlətləri bərpaolunan mənbələrdən alınan enerjinin birlikdə xarici bazarlara çıxarılmasına, bu məqsədlə zəruri infrastrukturun qurulmasına güclü siyasi iradə ortaya qoyurlar.



## Tarixinin ən yüksək səviyyəsində olan Azərbaycan-Qırğızıstan münasibətləri

Azərbaycanla Mərkəzi Asiya regionunun vahid siyasi və iqtisadi məkan kimi formalaşmasında ikitərəfli əlaqələrin də böyük rolu var. Bu kontekstdə Azərbaycan ilə Qırğızıstan arasında münasibətlərin hazırda tarixinin ən yüksək səviyyəsində olması məmnunluq doğurur. Əvvəllər əsasən ortaq mədəni və tarixi köklərə, ümumi türk kimliyinə əsaslanan bu münasibətlər son illərdə aydın strukturlaşdırılmış, praqmatik və dinamik inkişaf edən strateji tərəfdaşlığa çevrilib. Bu gün Bakı ilə Bişkek yalnız ən yüksək səviyyədə sabit siyasi dialoqu qorumaqla kifayətlənmir, həm də dərin iqtisadi inteqrasiya üçün institusional əsaslar yaradırlar.

Oxşar talelərdən keçən ölkələrimiz arasında diplomatik münasibətlər rəsmi olaraq 1993-cü il yanvarın 19-da qurulub. İkitərəfli əlaqələrin bünövrəsi isə 1995-ci ilin avqustunda Ümummilli Lider Heydər Əliyevin Türkdilli Dövlət Başçılarının III Zirvə Görüşü və "Manas" eposunun 1000 illik yubileyi çərçivəsində Qırğızıstana ilk səfəri ilə qoyulub. Diplomatik münasibətlərin inkişafı 2007-ci ildə Azərbaycanın Bişkekdə, 2008-ci ildə isə Qırğızıstanın Bakıda səfirliklərinin fəaliyyətə başlaması ilə yeni mərhələyə qədəm qoyub. Ötən dövrdə hər iki dövlət qarşılıqlı əlaqələrin möhkəmlənməsinə güclü siyasi iradə göstərib. Prezidentlər İlham Əliyev və Sadır Japarov arasında qarşılıqlı inama əsaslanan şəxsi münasibətlər ikitərəfli əlaqələrə güclü dinamika qazandırıb. Təsadüfi deyil ki, son 5 ildə qarşılıqlı olaraq 13 yüksəksəviyyəli səfər gerçəkləşdirilib. Prezident İlham Əliyev 2022-ci il oktyabrın 11-12-də Qırğızıstana ilk dövlət səfəri həyata keçirib. Prezident Sadır Japarov isə 2022-ci ilin aprelində ölkəmizə rəsmi, 2024-cü ilin aprelində isə dövlət səfərləri edib.

İki ölkə arasında indiyədək 105 sənəd imzalanıb. Bunlardan ən mühümü Azərbaycanla Qırğızıstan arasında strateji tərəfdaşlığın əsasını qoyan "Strateji Tərəfdaşlıq haqqında Bəyannamə"dir. Baza mexanizmi kimi yaradılan Dövlətlərarası Şuranın 1-ci iclası 2022-ci ildə Bişkekdə, 2-ci iclası isə 2024-cü ildə Bakıda keçirilib.

Heç şübhəsiz ki, Prezident İlham Əliyevin dost Qırğızıstana növbəti dövlət səfəri ikitərəfli münasibətlərdə keyfiyyətcə yeni mərhələ açacaq. Bunu səfərin gündəliyindən də görmək mümkündür. Səfər çərçivəsində "Müttəfiqlik münasibətləri haqqında Müqavilə"nin imzalanması da gözlənilir. Bu sənədlə Azərbaycanla Qırğızıstan arasında strateji tərəfdaşlıq münasibətləri ən yüksək səviyyəyə - müttəfiqlik səviyyəsinə yüksələcək.

## İki ölkə arasında iqtisadi tərəfdaşlığın artan dinamikası

Son illərdə Azərbaycan ilə Qırğızıstan arasında iqtisadi və nəqliyyat-logistika sahələrində əməkdaşlıq keyfiyyətcə yeni mərhələyə qədəm qoyaraq nəzərəçarpacaq dərəcədə genişlənib. İkitərəfli ticarətin həcmi nin 2025-ci ildə 77,17 milyon dollara çatması, eləcə də Azərbaycanda 100-ə yaxın Qırğızıstan şirkətinin fəaliyyət göstərməsi iqtisadi tərəfdaşlığın artan dinamikasını əks etdirir.

İqtisadi əlaqələrin tənzimlənməsində və yeni imkanların dəyərləndirilməsində Birgə Hökumətlərarası Komissiya mühüm rol oynayır. Komissiyanın 2025-ci ilin dekabrında Bakıda keçirilən 6-cı iclası iqtisadi prioritetlərin müəyyənləşdirilməsinə növbəti töhfəsini verib.

Biznes təşəbbüslərinin dəstəklənməsi və birgə investisiya layihələrinin həyata keçirilməsində əsas mexanizm kimi Azərbaycan-Qırğız İnkişaf Fondu çıxış edir. Sahibkarların artan tələbatını qarşılamaq üçün nizamnamə kapitalı 100 milyon dollara çatdırılan fond tərəfindən artıq ümumi dəyəri 52,7 milyon dollar olan strateji layihələr maliyyələşdirilib və hazırda daha 10-a yaxın müraciətə baxılır.

İqtisadi inteqrasiyanı tamamlayan nəqliyyat-logistika sektoru da sürətlə inkişaf edir. Tərəflər "Şərq-Qərb" Beynəlxalq Nəqliyyat Dəhlizi, Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz) və "Çin-Qırğızıstan-Özbəkistan-Türkmənistan-Azərbaycan-Gürcüstan-Avropa" multimodal marşrutu üzrə yükdaşımaları fəal şəkildə həyata keçirirlər.

Nəqliyyat əlaqələrinin mühüm tərkib hissəsi olan hava nəqliyyatı sahəsində də intensivlik təmin edilib. AZAL tərəfindən Bakı-Bişkek marşrutu üzrə həftədə 4 müntəzəm, Bakı-İssık-Kul xətti üzrə isə mövsümi reyslərin yerinə yetirilməsi işgüzar və turizm əlaqələrinin daha da canlanmasına xidmət edir.

## Qırğızıstanın Qarabağın bərpasına verdiyi dəstək

Tərəflərin qarşılıqlı maliyyə resursları hesabına həyata keçirdiyi layihələr xalqların mənəvi birliyini möhkəmləndirir. Bişkekdə Azərbaycanın dəstəyi ilə Dostluq parkı, Nizami Gəncəvi adına 103 saylı məktəb və Heydər Əliyev adına Məktəb-Gimnaziya Kompleksi istifadəyə verilib.

Qırğızıstan isə öz növbəsində Qarabağın bərpasında yaxından iştirak edir. Qırğız hökumətinin maliyyə dəstəyi ilə Ağdamın Xıdırlı kəndində 528 şagird yerlik Ayköl Manas adına tam orta məktəb tikilib. 2025-ci ilin iyulunda hər iki ölkənin liderlərinin iştirakı ilə kəndin birinci mərhələsinin və məktəbin rəsmi açılışı olub. 2025-2026-cı tədris ilində məktəb ilk 12 məzununu yola salıb.

Açılış mərasimində çıxış edən Prezident İlham Əliyev bu təşəbbüsü yüksək qiymətləndirərək bildirib: "Sadır Nurqojoyeviçin təşəbbüsü ilə bu regionun hazırda ən böyük yaşayış məntəqəsi olan Xıdırlı kəndində gözəl məktəb tikilib. Bu gün biz ona baxış keçirdik və rəsmi şəkildə açdıq. Məktəbə Ayköl Manasın adı verilib. Bildiyiniz kimi, "Manas" qırğız xalqının dastanıdır, qırğızların ruhunu təcəssüm etdirir. Əminəm ki, bu məktəbin və bu kəndin gələcək inkişafı üzrə hər şey bizim qırğız qardaşlarımızla bağlı olacaq".

Prezident Sadır Japarov da bu addımın strateji və mənəvi əhəmiyyətini vurğulayaraq qeyd edib: "Bu tarixi hadisə mənəvi əlaqələrimizi daha da möhkəmləndirəcək. Bizim ümumi dəyərlərimiz var və onları gələcək nəsillərə ötürməyə borcluyuq. Bişkekdəki Heydər Əliyev adına məktəb və Xıdırlı kəndindəki Manas adına bu məktəb xalqlarımızın dostluğunun rəmzidir".

Onu da qeyd edək ki, Qırğızıstan tərəfi azad olunmuş ərazilərdəki yaylaqlar üçün Azərbaycana 225 baş yak hədiyyə edib. Eyni zamanda, Bakı və Bişkek, eləcə də Quba və Kant şəhərləri qardaşlaşıblar ki, bu da sarsılmaz dostluğun daha bir rəmzidir.

***Mübariz ABDULLAYEV***

# Dünya idman ailəsinin Azərbaycana artan inamı





Ölkədə idmanın inkişafına və onun kütləviliyinin təmin olunmasına böyük önəm verən Azərbaycan eyni zamanda beynəlxalq idman ictimaiyyətinin böyük etimadını qazanıb. Bunun təsdiqi olaraq respublikamız tez-tez dünya idman gündəliyinin aktual məsələlərinin müzakirə olunduğu və mühüm qərarların qəbul edildiyi tədbirlərə ev sahibliyi edir. Elə bu günlərdə Prezident İlham Əliyev Dünya Güləş Birliyinin prezidenti Nenad Laloviçi qəbul edib.

Söhbət zamanı Azərbaycanın ev sahibliyi ilə keçirilən beynəlxalq səviyyəli yarışların bir qayda olaraq yüksək səviyyədə təşkil olunduğuna diqqət çəkilib. Azərbaycan Prezidenti ilə görüşdən şərəf hissi duyduğunu deyən qonaq 17 yaşadək güləşçilər arasında Bakıda keçirilən dünya çempionatının yüksək səviyyədə təşkil edildiyini vurğulayıb, buna və ümumilikdə Dünya Güləş Birliyinin fəaliyyətinə göstərdiyi dəstəyə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib.

Qəbulda Prezident İlham Əliyev gənc idmançıların gələcəkdə uğur qazanması baxımından 17 yaşadək güləşçilər arasında Bakıda keçirilən dünya çempionatının əhəmiyyətinə toxunub və bundan sonra da ölkəmizdə bu cür idman tədbirlərinin təşkilinin önəmini qeyd edib.

**Azərbaycanda mötəbər beynəlxalq yarışların keçirilməsi ənənəsi**

Azərbaycan Prezidentinin Dünya Güləş Birliyinin prezidenti Nenad Laloviç ilə görüşü ölkəmizdə növbəti mötəbər beynəlxalq turnirin keçirildiyi günlərə təsadüf edib. Söhbət Bakıda təşkil olunan güləş üzrə U-17 dünya çempionatından gedir. İyulun 27-də paytaxtımızdakı Milli Gimnastika Arenasında çempionatın təntənəli açılış mərasimi keçirilib. Tədbirdə Azərbaycan Güləş Federasiyasının prezidenti Mikayıl Cabbarov, gənclər və idman naziri Fərid Qayıbov, Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə və Dünya Güləş Birliyinin (UWW) prezidenti Nenad Laloviç çıxış ediblər.

Bəhs olunan mötəbər çempionata ev sahibliyi hüququnun ölkəmizə verilməsi dünya idman ictimaiyyətinin Azərbaycana artan inamının növbəti göstəricisidir. Təbii ki, bunu şərtləndirən fundamental amillər var. Bu inam ilk növbədə Azərbaycanın güclü dövlət olmasından qaynaqlanır. Aydındır ki, dünyada böyük maraqla izlənilən yarışları iqtisadi potensialı, maliyyə imkanları aşağı səviyyədə olan ölkələrin təşkil etməsi mümkün deyil. Müstəqil Azərbaycan isə Prezident İlham Əliyevin rəhbərliyi ilə apardığı məqsədyönlü siyasətin məntiqi nəticəsi olaraq güclü dövlətə çevrilib və bunu müxtəlif sahələrdə hər zaman təsdiqləyir. Eyni zamanda, uzunmüddətli sabitlik, yüksək səviyyədə olan vətəndaş həmrəyliyi, cəmiyyətimizin tolerantlığı və bu kimi digər amillər ölkəmizin üstünlüyünü şərtləndirir.

Öz növbəsində Azərbaycan da göstərilən etimadı bir qayda olaraq yüksək səviyyədə doğruldur. Dünya idman ailəsində ev sahibliyi hüququnun Azərbaycana verilən yarışların mütləq qaydada yüksək səviyyədə keçiriləcəyinə qəti inam formalaşması son dərəcə qürurvericidir. Artıq gözəl bir ənənə yaranıb - ölkəmiz ev sahibliyi etdiyi beynəlxalq yarışlara ciddi hazırlıqlar görür, özünün yüksək standartlarını müəyyənləşdirir və sonradan bu standartlar dünya səviyyəsində qəbul olunur.

İndiyədək respublikamızda yaddaşlarda gözəl təəssüratlarla qalan bir sıra beynəlxalq səviyyəli yarışlar böyük uğurla baş tutub. Onlardan yalnız bir neçəsini sadalamaq yerinə düşər. "Qoca qitə"nin tarixində 2015-ci ilin yayında ilk dəfə təşkil olunan Birinci Avropa Oyunlarına Azərbaycanın ev sahibliyi etməsi bizim üçün daimi qürur mənbəyi olaraq qalacaq. Birinci Avropa Oyunlarının 2015-ci ilin yayında Bakıda keçirilməsi barədə qərar 2012-ci ilin dekabrında Avropa Olimpiya Komitəsinin (AOK) Baş Məclisində qəbul edilib. Avropanın idman-olimpiya ailəsi Bakının namizədliyini böyük səs çoxluğu ilə dəstəkləyib.

Yarışlarda 50 Avropa ölkəsindən 6000-dən çox idmançı mübarizə aparıb. Avropa Oyunlarının təqviminə 30 idman növü daxil edilmişdi. Onlardan 24-ü Olimpiya, 6-sı isə qeyri-Olimpiya idman növü idi. Oyunlarda idmançılar 253 dəst medal uğrunda yarışıblar.

Birinci Avropa Oyunlarından sonra İslam dünyası IV İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi hüququnu Azərbaycana həvalə edib. Bu Oyunların da miqyası çox böyük idi. İslam Həmrəyliyi İdman Federasiyasının bütün üzv dövlətləri Oyunlara qatılıblar. Oyunlarda 21 idman növü üzrə 54 dövlətin 3000-dən çox idmançısı mübarizə aparıb. Atletlər 269 dəst medal uğrunda yarışıblar.

İdman yarışlarının təşkilində böyük təcrübəyə malik olan Azərbaycan təkcə son illərdə gimnastikanın dörd növü üzrə Dünya Kubokuna, yeniyetmə cüdoçular arasında Avropa Kubokuna, bədii gimnastika üzrə 39-cu Avropa çempionatına ev sahibliyi edib. Dünyanın ən güclü snayperlərinin iştirakı ilə keçirilən atıcılıq üzrə Dünya kuboku dəfələrlə respublikamızda baş tutub.

Paytaxt Bakı 2016-cı ildən başlayaraq dünyada çox məşhur olan Formula-1 yarışlarına ev sahibliyi edir. Hazırda paytaxtımızda növbəti Formula -1 yarışlarına intensiv hazırlıqlar görülür.

Ötən ilin payızında isə respublikamız III MDB Oyunlarına böyük uğurla ev sahibliyi etdi. Bu yarışlara 13 ölkədən 1624 idmançı və 2 337 nümayəndə qatılmışdı. Turnirdə Azərbaycanı 340, Pakistanı 4, Rusiyanı 262, Özbəkistanı 254, Belarusu 240, Qazaxıstanı 147, Tacikistanı 144, Qırğızıstanı 126, Türkmənistanı 48, Türkiyəni 38, Kubanı 11, Küveyti 6, Omanı isə 4 idmançı təmsil edib.

Bəhs olunan qəbulda ölkəmizdə idmanın güləş növünün inkişafını vurğulayan Nenad Laloviç Azərbaycanda güləş üzrə müxtəlif beynəlxalq səviyyəli yarışların keçirildiyini xatırladıb, Azərbaycan Güləş Federasiyası ilə uğurlu əməkdaşlıq etdiklərini deyib. Qeyd edək ki, təkcə son 5 ildə Bakıda yunan-Roma güləşi üzrə Dünya Kuboku, Paris-2024-ə seçim xarakterli Avropa Olimpiya Təsnifat turniri, U23 Avropa çempionatı və digər yarışlar böyük uğurla keçirilib.

Dünya idman ailəsinin Azərbaycana artan inamını təsdiqləyən daha bir faktı qeyd edək. Xatırladaq ki, Avropa İdman Paytaxtları və Şəhərləri Federasiyası Bakı şəhərini 2026-cı il üçün dünyanın "İdman paytaxtı" seçib.

**Paytaxtda və regionlarda yaradılan müasir idman infrastrukturu**

Dünya idman ictimaiyyətinin Azərbaycana artan inamını şərtləndirən amillər sırasında son 23 ildə Prezident İlham Əliyevin qətiyyətli siyasi iradəsi əsasında paytaxtda və regionlarda yaradılan müasir idman infrastrukturunun önəmini ayrıca qeyd etmək lazımdır. Zəruri infrastruktur yaradılmadan böyük idmanda uğurlar qazanmaq da mümkün deyil. İlham Əliyevin 1997-ci il 31 iyul tarixində Milli Olimpiya Komitəsinin (MOK) Prezidenti seçildikdən sonra böyük diqqət göstərdiyi sahələrdən biri də bütün ölkə boyu müasir idman infrastrukturunun yaradılması oldu. İlham Əliyevin paytaxt Bakının qəsəbələrində və regionlarda İdman-Olimpiya komplekslərinin tikilməsi ilə bağlı irəli sürdüyü təşəbbüs böyük sosial mahiyyət daşıyır. Məmnunluq hissi ilə vurğulamaq istərdik ki, hazırda bu proses respublikanın bütün bölgələrini əhatə edib. Artıq ölkə üzrə 50-yə yaxın Olimpiya-İdman Kompleksi idmansevərlərin istifadəsinə verilib. Eyni zamanda, MOK-un rəhbərinin səyləri ilə mövcud idman arenalarının yenidən qurulması, idman obyektlərinin maddi-texniki bazasının möhkəmləndirilməsi ardıcıl şəkildə davam etdirilir.

Hazırda ölkəmiz idman infrastrukturu təminatı baxımından dünyanın inkişaf etmiş ölkələrindən geri qalmır. Ölkəmizin böyük uğurla ev sahibliyi etdiyi Birinci Avropa Oyunlarına hazırlıq çərçivəsində Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Təşkilat Komitəsi yaradılmışdı. Təşkilat Komitəsinin səmərəli fəaliyyətinin nəticəsi olaraq həyata keçirilən layihələr respublikamızın idman infrastrukturunu əhəmiyyətli dərəcədə zənginləşdirib. Birinci Avropa Oyunlarına hazırlıq məqsədilə 5 müasir idman qurğusu - Milli Gimnastika Arenası, BMX Veloparkı, Bakı Su İdmanı Mərkəzi, Bakı Atıcılıq Mərkəzi və möhtəşəm Olimpiya Stadionu inşa edilib. Bundan başqa, atletlər kəndi barədə də ən xoş sözləri söyləmək mümkündür.

O cümlədən, ötən ilin payızında Azərbaycanın regionlarında keçirilən III MDB Oyunlarına hazırlıq çərçivəsində də yeni müasir idman obyektləri istifadəyə verilib. O cümlədən Prezident İlham Əliyevin iştirakı ilə Gəncə İdman Sarayının açılışı baş tutub. Gəncə İdman Sarayı müasirliyi ilə diqqəti cəlb edir. Ümumi sahəsi 40 min kvadratmetrə yaxın olan İdman Sarayında bütün zəruri infrastruktur yaradılıb.

III MDB Oyunlarının açılışından bir gün əvvəl - 2025-ci il sentyabrın 27-də isə Prezident İlham Əliyev Gəncə Şəhər Stadionunun açılışına qatılıb. Ərazisi 10 hektardan çox olan stadionun tamaşaçı tutumu 15 min 343 nəfərdir. Ərazidə AFFA tərəfindən köməkçi məşq meydançaları və futbol akademiyasının binası tikilib.

Azərbaycanı fərqləndirən cəhət ondan ibarətdir ki, respublikamızda idman infrastrukturunun yaradılmasında ən yüksək standartlar tətbiq edilir. İndiyədək istifadəyə verilən idman obyektlərində beynəlxalq səviyyəli yarışlar keçirmək üçün bütün imkanlar var.

**Azərbaycan idmançılarının dünya arenalarında qazandıqları parlaq qələbələr**

Azərbaycan idmançılarının dünya arenalarında parlaq qələbələr qazanmaları, himnimizi səsləndirmələri, bayrağımızı ucaltmaları son dərəcə qürurvericidir. Mötəbər beynəlxalq turnirlərə ev sahibliyi hüququnun Azərbaycana həvalə edilməsi və yarışlara hazırlıq çərçivəsində paytaxtda və regionlarda müasir idman infrastrukturunun qurulması ölkədə idmanın inkişafına güclü təsir göstərir. Son illərdə beynəlxalq yarışlara lisenziyalar qazanan idmançılarımızın sayı əhəmiyyətli dərəcədə artıb. Müxtəlif beynəlxalq turnirlərə qatılan Azərbaycan idmançıları yüksək nəticələr göstəririlər.

İdmançılarımızın Olimpiya Oyunlarında uğurlu çıxışları respublikamızda idmanın inkişafına əyani sübutdur. Olimpiya Oyunları bütün digər idman yarışları arasında xüsusi yer tutan bir yarışdır, dörd ildən bir keçirilən idman bayramıdır və əlbəttə ki, hər bir idmançı, hər bir ölkə bu Oyunlara xüsusi hazırlaşır. İdmançılarımız sonuncu - "Paris - 24" 33-cü Yay Olimpiya Oyunlarında daha uğurlu nəticələr qazanmağa nail olublar. Qeyd edək ki, Azərbaycan "Paris-2024" Yay Olimpiya Oyunlarında 15 idman növü üzrə 48 idmançı ilə təmsil olunub. Bütövlükdə, idmançılarımız Parisdə 2 qızıl, 2 gümüş və 3 bürünc medal qazanıblar. Həmçinin Azərbaycanın bədii gimnastika üzrə qrup hərəkətləri komandası Paris Olimpiadasında 5-ci pillədə qərarlaşmaqla tarixi uğura imza atıb. Yekun nəticələrə görə, Azərbaycan son Olimpiya Oyunlarında dünya ölkələrinin sıralamasında 30-cu yerdə qərarlaşıb ki, bu da kifayət qədər yaxşı göstəricidir.

Prezident İlham Əliyevlə Dünya Güləş Birliyinin prezidenti Nenad Laloviçin görüşündə dövlətimizin başçısı Azərbaycan güləşçilərinin indiyədək çox mühüm qələbələr qazandıqlarını vurğulayıb. Görüşdə idmanın güləş növünün ölkəmizdə zəngin ənənələrə malik olduğu qeyd edilib, onun inkişafı üçün dövlət səviyyəsində görülən işlərə toxunulub. Həqiqətən də, idmanın güləş növü Azərbaycanda çox populyardır. Bu sahədə ölkəmizdə zəngin ənənələr formalaşıb və güləşçilərimiz öz uğurları ilə bu ənənələri getdikcə daha da zənginləşdirirlər.

Son illərdə respublikamızda güləş üzrə maddi-texniki bazanın gücləndirilməsi üçün müxtəlif infrastruktur layihələri həyata keçirilib. Həmçinin kütləviliyin artırılması məqsədilə intensiv təbliğat işləri aparılıb. Titullu güləşçilərin iştirakı ilə ustad dərsləri, məşqçilərin bilik və bacarıqlarının təkmilləşdirilməsi üçün ümumrespublika seminarları təşkil edilib. Güclü irsin formalaşdırılması məqsədilə aşağı yaş qrupları üzrə güləşin inkişafına xüsusi diqqət ayrılıb. Bu da U15 və U17 yaş qruplarında böyük uğurlara nail olunmasına töhfə verib. Bütövlükdə güləşçilərimiz 2022-2025-ci illərdə müxtəlif beynəlxalq yarışlarda 1031 medal qazanıblar. Bunların 293-ü qızıl, 292-si gümüş, 446-sı isə bürünc medal olub. Milli komandalarımız müxtəlif yaş qruplarında dəfələrlə Avropa və dünya çempionatlarında ilk üçlükdə yer alıb. Yunan-Roma güləşçilərimiz 2023 və 2024-cü illərdə dünyanın ən güclü komandası titulunu qazanmağa müyəssər olub.

O cümlədən idmançılarımız bu günlərdə Bakının ev sahibliyi etdiyi U17 dünya çempionatında da uğurlara imza atıblar. Artıq çempionat çərçivəsində yunan-Roma güləşi üzrə yarışa yekun vurulub. 3 gümüş və 3 bürünc medal qazanan millimiz 107 xal toplayaraq komanda hesabında dünya ikincisi olub. Rusiya (127) birinci, İran (96) isə üçüncü yeri tutub.

*Mübariz FEYİZLİ*

# Azərbaycanın fəal parlament diplomatiyası...

## Beynəlxalq müstəvidə də yüksək dəyərləndirilir

Azərbaycanın xarici siyasət kursunda parlament diplomatiyasının da mühüm rolu var. Ümumən, müasir beynəlxalq münasibətlər sistemində parlament diplomatiyasının artan nüfuzu artıq reallıqdır. Məhz bu tendensiyanın nəticəsidir ki, son illərdə qanunverici orqan vasitəsilə atılan addımlar Azərbaycanın dövlət strategiyasının mühüm komponentinə çevrilib. Parlament diplomatiyasının məqsədi dövlətlər və regionlar arasında əlaqələrin və inteqrasiyanın dərinləşdirilməsinə nail olmaqdır.

Azərbaycan parlamenti hər zaman dövlət başçısının yürütdüyü daxili və xarici siyasi kursu birmənalı şəkildə dəstəkləyir. Görülən məqsədyönlü işlər nəticəsində ölkəmizin beynəlxalq platformalardakı mövqeyi daha da sarsılmaz hala gəlib, dünya ölkələri ilə qarşılıqlı etimada əsaslanan əməkdaşlıq münasibətləri dərinləşib. Hakimiyyətin mühüm qolu olan parlamentin işində beynəlxalq fəaliyyət prioritet istiqamət kimi ön plana çıxır. Milli Məclisin beynəlxalq fəaliyyəti dövlətin xarici siyasət prioritetlərinin qlobal müstəvidə müdafiəsi missiyasıdır. Bu istiqamətdə ikitərəfli və çoxşaxəli parlament təşkilatları ilə əlaqələrin inkişafı istiqamətində sistemli tədbirlər görülür. Eyni zamanda millət vəkilləri Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması və milli maraqlarımızın təbliği istiqamətində üzərlərinə düşən missiyanı layiqincə yerinə yetirirlər.

Milli Məclis bir çox nüfuzlu təşkilatların - ATƏT PA, MDB PA, Asiya PA, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı PA, İslam Əməkdaşlıq Təşkilatı PA, GUAM PA, Türk PA, Parlamentlərarası İttifaq və NATO PA-nın işində aktiv təmsil olunur. Məhz bu təşkilatlar çərçivəsində aparılan uğurlu əməkdaşlıq fəaliyyəti nəticəsində vaxtilə Ermənistanın apardığı işğalçılıq siyasətini ifşa edən qərarlar qəbul edilib. Eyni zamanda, Milli Məclis dünyanın bir çox ölkələrinin parlamentləri ilə əlaqələri genişləndirir.

Azərbaycanın parlament diplomatiyasını müxtəlif ölkələrin rəsmiləri də yüksək qiymətləndirir. Bu mövqe Milli Məclisin sədri Sahibə Qafarovanın Efiopiyaya rəsmi səfəri zamanı da vurğulanıb. Qeyd edək ki, Sahibə Qafarova Efiopiya Federativ Demokratik Respublikasına rəsmi səfəri çərçivəsində iyulun 29-da bu ölkənin Federasiya Palatasının sədri Aqeqnehu Teşager ilə görüşüb. Görüşdə qeyd olunub ki, Efiopiya ticarət, investisiya, turizm kimi sahələrdə Azərbaycanla əlaqələri daha da inkişaf etdirməkdə maraqlıdır. Bununla yanaşı, Azərbaycanın turizm sahəsində əldə etdiyi nailiyyətlərin Efiopiya üçün də uğurlu nümunə təşkil etdiyi vurğulanıb. Federasiya Palatasının sədri Azərbaycan və Ermənistan arasında sülh sazişinin paraflanmasının Azərbaycanın uğuru olduğunu söyləyərək, ölkəmizin inkişafı, qazandığı nailiyyətlərin dost Efiopiyada diqqətlə izlənildiyini bildirib. O, xüsusilə "ASAN xidmət" modelinin Efiopiyada da tətbiq olunması və Azərbaycanın bu məsələdə göstərdiyi texniki dəstəyi yüksək qiymətləndirərək, bu modelin artıq Efiopiyanın regionlarında qurulduğunu və bununla dövlət xidmətlərinin göstərilməsində səmərəliliyin artırıldığını diqqətə çatdırıb. Azərbaycanın COP29-a yüksək səviyyədə ev sahibliyi etdiyini və ölkəmizin uğurlu təşkilatçılığının yüksək qiymətləndirildiyini bildirən Aqeqnehu Teşager ölkəsinin 2027-ci ildə keçiriləcək COP32-yə ev sahibliyi edəcəyini xatırladıb və bu sahədə də Azərbaycanın təcrübəsindən bəhrələnəcəklərini bildirib.



Milli Məclisin sədri Sahibə Qafarova Efiopiyanın son illərdə bir çox sahələrdə nəzərəçarpan uğurlar qazandığını bildirib. O, ölkələrimiz arasında əlaqələrin yaxşı səviyyədə olduğunu söyləyib və münasibətləri daha da dərinləşdirmək üçün böyük potensialın mövcudluğunu qeyd edib.

Görüşdə parlamentlərarası əlaqələr də nəzərdən keçirilib. Parlament sədrləri, dostluq qrupları arasında qarşılıqlı səfərlərin qanunvericilik orqanları arasında əməkdaşlığın daha da dərinləşməsinə töhfələri vurğulanıb. Eyni zamanda, parlament komitələri, dostluq qrupları və parlament aparatları arasında əməkdaşlıq imkanları nəzərdən keçirilib.

Efiopiya Federasiya Palatasının sədri Azərbaycanın fəal parlament diplomatiyası həyata keçirdiyini və bir çox beynəlxalq parlament təşkilatlarında aktiv təmsil olunduğunu bildirib. Spiker Sahibə Qafarova bu platformalarda əməkdaşlığın genişləndirilməsinin əhəmiyyətini vurğulayıb.

Aqeqnehu Teşager Milli Məclisin sədrinin səfərinin çox mühüm bir dövrə təsadüf etdiyini, bir müddət əvvəl Efiopiyada 7-ci parlament seçkilərinin uğurla keçirildiyini bildirib və seçkilərin nəticələri haqqında məlumat verib.

Bundan əlavə, Milli Məclisin sədri bu ölkənin Baş naziri Abiy Əhməd Əli ilə də görüşüb. Görüşdə Azərbaycanla Efiopiya arasında dostluq münasibətlərinin və qarşılıqlı faydalı əməkdaşlığın inkişaf perspektivləri barədə geniş fikir mübadiləsi aparılıb. Baş nazir Abiy Əhməd Əli Azərbaycanın son illərdə beynəlxalq aləmdə yüksək nüfuz qazandığını qeyd edərək, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin qazandığı uğurların beynəlxalq səviyyədə böyük rəğbətlə qarşılandığını bildirib. O, Prezident İlham Əliyevlə keçirdiyi görüşləri məmnunluqla xatırlayaraq, həmin görüşlərdə aparılan səmərəli müzakirələrin ölkələrimiz arasında münasibətlərin inkişafına yeni təkan verdiyini, əldə olunmuş razılaşmaların əməkdaşlığın genişləndirilməsi üçün mühüm zəmin yaratdığını vurğulayıb.

O, ölkəsinin Azərbaycanla iqtisadi əməkdaşlığın genişləndirilməsində maraqlı olduğunu deyərək, xüsusən neft-qaz sənayesi sahəsində layihələrin həyata keçirilməsinin əhəmiyyətini diqqətə çatdırıb. Bildirib ki, bu istiqamətlərdə mövcud potensialdan səmərəli istifadə olunması hər iki ölkənin maraqlarına xidmət edir.

Milli Məclisin sədri bu səfərin Azərbaycan ilə Efiopiya arasında əməkdaşlığın yeni istiqamətlər üzrə genişləndirilməsi üçün əlverişli imkanlar açdığını qeyd edib. O, respublikamızın inkişaf yolu haqqında danışıb, Ulu Öndər Heydər Əliyevin ölkəmizin dövlətçilik ənənələrinin möhkəmləndirilməsi və müasir Azərbaycanın inkişaf strategiyasının formalaşdırılması istiqamətində müstəsna xidmətlərini qeyd edib, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin beynəlxalq mövqeyinin və nüfuzunun davamlı olaraq möhkəmləndiyini vurğulayıb.

S.Qafarova Azərbaycan ilə Efiopiya arasında dövlət başçıları səviyyəsində formalaşmış səmimi münasibətlərin və yüksəksəviyyəli qarşılıqlı təmasların ikitərəfli əməkdaşlığın inkişafında mühüm rol oynadığını diqqətə çatdırıb.

Milli Məclisin sədri Baş nazirə, həmçinin ölkəmizin işğaldan azad edilmiş ərazilərində Azərbaycanın öz imkanları hesabına həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq tədbirləri barədə də məlumat verib.

Göründüyü kimi, son illər həyata keçirilən parlament diplomatiyası nəticəsində Azərbaycanın beynəlxalq münasibətlər sistemində və beynəlxalq platformalarda mövqeyini daha da möhkəmlənib. Artıq Azərbaycanda beynəlxalq və regional təşkilatların parlament şəbəkələrinin toplantılarının keçirilməsi ənənəsi də formalaşıb. Son illər parlament diplomatiyası çərçivəsində Azərbaycan bir çox beynəlxalq səviyyəli tədbirlərə və toplantılara ev sahibliyi edib. Eyni zamanda dünyanın ən müxtəlif ölkələrinin parlament nümayəndələri ölkəmizə səfər edir və bu səfərlər qarşılıqlıdır. Dünya ölkələrinin parlamentləri ilə sıx əməkdaşlıq və dostluq münasibətləri formalaşır. Təbii ki, bu cür əlaqələrin qurulması ölkələr arasında münasibətlərin inkişafına xidmət etməklə yanaşı, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında, ölkəmizin beynəlxalq platformalarda dəstəklənməsində təsirli amildir.

***Nardar BAYRAMLI***

# Xarici dövlət borcumuz azalıb

Bu ilin iyulun 1-nə Azərbaycanın xarici dövlət borcu 4.616,8 milyon ABŞ dolları və ya 2026-cı il üzrə 130.873,5 milyon manat (76.984,4 milyon ABŞ dolları) məbləğində proqnozlaşdırılan ÜDM-in 6 faizini təşkil edib. Bu barədə Maliyyə Nazirliyinin "2026-cı ilin I yarımili üzrə dövlət borcu və dövlət zəmanətli borca dair Statistik Bülleten"ində bildirilir.

Xarici dövlət borcu 2026-cı ilin əvvəli ilə müqayisədə mütləq ifadədə 196,7 milyon ABŞ dolları və ya 4,1 faiz azalıb. 2026-cı ilin birinci yarımili ərzində kredit sazişləri çərçivəsində 57,1 milyon ABŞ dolları məbləğində vəsaitin istifadə edilməsi və xarici valyuta məzənnələrinin ABŞ dollarına münasibətdə zəifləməsi nəticəsində xarici dövlət borcunun ABŞ dolları ifadəsində 20,4 milyon ABŞ dolları məbləğində azalması müqabilində 233,4 milyon ABŞ dolları vaxtı çatmış əsas borc ödənişlərinin həyata keçirilməsi xarici dövlət borcunun azalmasını şərtləndirib. İyulun 1-nə xarici dövlət borcunun ÜDM-ə nisbəti 2026-cı ilin əvvəli ilə müqayisədə 0,3 faiz bəndi azalıb.

Hesabat tarixinə xarici dövlət borcunun tərkibində dəyişkən faiz dərəcəsi ilə olan öhdəliklər xarici dövlət borcunun 49,4 faizini, sabit dərəcə ilə olanlar isə 50,6 faizini təşkil edib.

Bundan əlavə, həmin tarixə xarici dövlət borcu portfelinin 35,7 faizi Asiya İnkişaf Bankının, 30 faizi avrobondların, 12,9 faizi Dünya Bankının, 21,4 faizi isə İslam İnkişaf Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyi, Asiya İnfrastruktur və İnvestisiya Bankı və digər kreditorlardan cəlb edilmiş öhdəliklərin payına düşür.

İyulun 1-nə ölkənin strateji valyuta ehtiyatları (Azərbaycan Respublikası Dövlət Neft Fondu və Azərbaycan Respublikasının Mərkəzi Bankı) 85,8 milyard ABŞ dolları məbləğində olmaqla xarici dövlət borcunu təqribən 18,6 dəfə üstələyir.

Bülletendə qeyd olunub ki, xarici dövlət borcunun 59,5 faizi 5 ilə qədər olan müddətdə, 34,9 faizi 5 ildən 10 ilə qədər olan müddətdə, 5,6 faizi isə 10 ildən yuxarı olan müddətdə kreditorlara qaytarılmalıdır.

Mövcud kredit müqavilələri və avrobondlar üzrə geri ödəniş qrafiklərinə uyğun olaraq xarici dövlət borcunun Orta Ödəmə Müddətinin göstəricisi 4,8 il təşkil edir.



Cari il iyulun 1-nə xarici dövlət borcunun valyuta tərkibi aşağıdakı kimi olub: ABŞ dolları - 86,4 faiz, avro - 6,1 faiz, XBH (Beynəlxalq Valyuta Fondunun Xüsusi borcalma Hüquqları) - 2,9 faiz, yapon yeni - 3,1 faiz, digər valyutalar - 1,5 faiz.

Həmçinin dövlət büdcəsi hesabına xarici borclar üzrə 290,7 milyon ABŞ dolları məbləğində əsas borc, 102,7 milyon ABŞ dolları məbləğində isə faiz borcu ödənişləri həyata keçirilib.

Xarici dövlət borcu portfelinin 30 faizini və ya 1 milyard 387,3 milyon ABŞ dolları məbləğində hissəsini beynəlxalq maliyyə bazarında ticarət olunan xarici valyuta nominallı dövlət istiqrazları (avrobondlar) təşkil edir. Borcun 59,8 faizi çoxtərəfli maliyyə institutları üzrə, 30 faizi avrobondlar üzrə, 10,2 faizi isə ikitərəfli maliyyə institutlarından cəlb edilmiş kreditlər üzrə öhdəliklərin payına düşür.

# TDT-nin ilk peyki 2027-ci ildə buraxılacaq



Türk Dövlətləri Təşkilatının (TDT) ilk birgə peyki olan OTS-SAT-ın 2027-ci ildə buraxılması planlaşdırılıb.

"Report"un yerli bürosunun Qazaxıstanın Süni İntellekt və Rəqəmsal İnkişaf Nazirliyinə istinadən verdiyi məlumata görə, layihəni nazirliyin rəhbəri Jaslan Madiyev və TDT-nin Baş katibi Kubanıçbek Ömüralıyev müzakirə ediblər.

Bildirilib ki, kosmik aparatı qazaxıstanlı mühəndislər və mütəxəssislər Astanada yerləşən Kosmik Aparatların Yığma və Sınaq Kompleksinin bazasında hazırlayırlar: "Peykin mühəndis modeli artıq tam yığılıb, işlər təsdiq edilmiş qrafikə uyğun olaraq aparılır".

Bundan başqa, tərəflər çərçivə sazişinin hazırlanması, layihənin maliyyələşdirilməsi və buraxılışın təşkili məsələlərini nəzərdən keçiriblər.

J.Madiyevin sözlərinə görə, OTS-SAT-ın həyata keçirilməsi TDT ölkələrinin texnoloji əməkdaşlığını gücləndirəcək və yeni birgə layihələr üçün imkanlar yaradacaq.

# Enerji bazarında qiymət artımını şərtləndirən səbəblər

Yaxın Şərqdə hərbi-siyasi vəziyyətin getdikcə gərgin xarakter alması dünya enerji bazarında qiymətlərin artmasını şərtləndirir. Ötən gecə İordaniyada yerləşən ABŞ hərbi bazasının İran tərəfindən raket atəşinə məruz qalması və buna cavab olaraq ABŞ hərbi aviasiyasının İranı bombardman etməsinə bazarın reaksiyası özünü gözlətməyib. London birjasında "Brent" markalı neftin 1 barelinin qiyməti 7 faiz artaraq 90 dolları ötüb. Bununla yanaşı, "Light" markalı neftin bir barelinin qiyməti 6 faiz artaraq 84 dollara satılıb.



AZƏRTAC xəbər verir ki, Səudiyyə Ərəbistanı Qırmızı dənizdə Yəmən husilərinin gəmilərə hücumlarının qarşısını almaq məqsədilə hərbi koalisiya yaratdığını bəyan edib.

"Əl-Monitor" agentliyinin yaydığı məlumata görə, rəsmi Ər-Riyad 50 dövləti koalisiyada iştirak etməyə dəvət edib. Dəvət olunanlar arasında ABŞ, Misir, Türkiyə, Küveyt, Pakistan, Qətər, Sudan, Bəhreyn, Cibuti, Somali kimi dövlətlərin adları var. Koalisiyanın əsas məqsədi Qırmızı dənizdə hərbi əməliyyatlar keçirib Bab əl-Məndəb boğazını husilərin nəzarətindən almaqdır. Avropa dövlətlərindən Almaniya, Fransa və İtaliya da dəvət alıblar. Lakin onlar ABŞ-ın qərarını gözləyirlər.

Hörmüz və Qırmızı dənizdəki hərbi vəziyyətin dünya enerji bazarındakı qiymətlərə təsir göstərdiyi şübhəsizdir. Belə bir hərbi koalisiyanın yaradılması isə Yaxın Şərqdə hərbi-siyasi vəziyyətin yaxşıya deyil, daha da gərginliyə doğru getdiyini deməyə əsas verir. Bu isə öz növbəsində enerji bazarının təchizatında əlavə problemlər yaradacaq. Bu gün dünya enerji bazarında qiymətlərin artması məhz təchizatda yaranan problemin nəticəsidir.

Nəzərə çatdırmaq lazımdır ki, bahalaşma həm yüksək keyfiyyətli Azərbaycanın "Azeri Light", həm də o qədər də keyfiyyət standartlarına uyğun olmayan Rusiyanın "Urals" markalı neftini də əhatə edib. Hazırda "Azeri Light" neftinin 1 bareli 98 dollardan, "Urals" nefti isə 71 dollardan baha satılır.

# İyul görüşü müharibəni bitirə bilərmi?

## Zelenski Donald Trampla görüşünün nəticələrindən məmnun görünür

**Rusiya-Ukrayna müharibəsinin sülh yolu ilə həllinin dalana dirəndiyi bir vaxtda Volodimir Zelenskinin ABŞ-a səfəri ölkəsinə dəstək baxımından növbəti addım hesab olunur. Son zamanlar Vaşinqtondan Rusiya ilə bağlı pozitiv açıqlamaların olmaması da vəziyyətin bir qədər dəyişdiyini deməyə əsas verir.**

### Zelenski Kiyevin qələbə qazanacağına ABŞ-ı inandırıb?

Donald Trampla Volodimir Zelenskinin görüşü ərəfəsində adı açıqlanmayan ABŞ rəsmisi bildirmişdi ki, Vaşinqton Ukraynadakı münaqişəyə son qoymağın vaxtının çatdığını hesab edir. Zelenski isə iyulun 28-də Prezident Trampla görüşünün yaxşı keçdiyini deyib. Onun sözlərinə görə, görüşdə birgə sülh səyləri, "Patriot" sistemlərinin istehsalı üçün lisenziyalar və digər məsələlər müzakirə edilib. Ukrayna lideri Donald Trampın Kiyevə "Patriot" zenit-raket kompleksləri üçün raketlərin istehsalına lisenziya verilməsinə razılıq verdiyini bildirib. Zelenski "Fox News" telekanalına müsahibəsində deyib ki, iyulun 28-də Vaşinqtonda Donald Trampla keçirilən qapalı görüş zamanı bu məsələ müzakirə olunub və ABŞ Prezidenti lisenziyanın verilməsinə razılıq ifadə edib. Zelenski əlavə edib ki, o, ABŞ hərbi sənaye şirkətlərinin nümayəndələri ilə də görüşüb və raketlərin birgə istehsalına ümid etdiyini bildirib.

Xatırladaq ki, Tramp iyulun 8-də Türkiyədə keçirilən NATO sammiti çərçivəsində Zelenski ilə görüşündə Vaşinqtonun "Patriot" sistemlərinin istehsalı üzrə lisenziyanı Ukraynaya verməyə hazır olduğunu bildirmişdi. Hazırda Kiyev bu məsələnin tezliklə reallaşacağına ümid bəsləyir.

ABŞ Prezidenti Donald Tramp da Ukrayna Prezidenti Volodimir Zelenski ilə görüşünün çox yaxşı keçdiyini deyib. ABŞ lideri jurnalistlərə açıqlaması zamanı bildirib ki, Zelenskidən müharibəyə son qoymasını istəyib: "Mən Prezident Putinlə də, Prezident Zelenski ilə də yaxşı yola gedirəm. Ona dedim ki, müharibəyə son qoymaq istəyirəm. Müharibəyə son qoymaq lazımdır".

"Politico" nəşri isə yazır ki, Ukrayna Prezidenti Volodimir Zelenski Kiyevin müharibədə qələbə qazana biləcəyinə ABŞ-ı inandıra bilib. Nəşrin məlumatına görə, ABŞ Prezidenti Donald Trampla görüşdən sonra Zelenski Vaşinqtonu yüksək əhvali-ruhiyyədə tərk edib. ABŞ Senatının Rusiya neftini alan ölkələrə qarşı yeni sanksiyaların tətbiq edilməsi barədə qanun layihəsini təsdiqləməsi də Ukrayna tərəfi üçün əlavə uğur olub.

### Moskva Vaşinqtona "Ankoric razılaşmaları"nı xatırladır

ABŞ-ın Ukraynaya dəstək mesajlarının artdığı bir şəraitdə rəsmi Moskva Vaşinqtona "Ankoric razılaşmaları"nı xatırladıb. Rusiya Xarici İşlər Nazirliyinin (XİN) sözçüsü Mariya Zaxarova bildirib ki, Rusiya heç vaxt Ukrayna böhranının siyasi və diplomatik həllindən imtina etməyib və əvvəlki kimi sülh danışıqlarına hazırdır. "Öz tərəfimizdən, biz Ukrayna böhranının siyasi və diplomatik həllinə hazır olduğumuzu təsdiqləyirik, biz bundan heç vaxt imtina etməmişik, lakin o cümlədən Alyaskada əldə edilən qarşılıqlı anlaşmalar əsasında", - deyən diplomat əlavə edib ki, Moskva Vaşinqtonu yeni ideyalar irəli sürməzdən əvvəl "Ankoric razılaşmaları" ilə bağlı vəziyyətə aydınlıq gətirməyə çağırır. Onun sözlərinə görə, Rusiya həmçinin Ukraynadakı münaqişənin diplomatik həlli üçün yeni təklifləri və ideyaları nəzərdən keçirməyə hazırdır: "Nəzərdən keçirməyə hazır olacağımız mümkün müzakirələrə, təkliflərə və ideyalara hazır olduğumuzu yenidən təsdiqləyirik. Bundan heç kim imtina etməyib".

Yeri gəlmişkən, BMT Təhlükəsizlik Şurasının son iclasında da Rusiya-Ukrayna müharibəsi diqqət mərkəzində olub. İclasda çıxış edən BMT-nin Siyasi məsələlər departamentinin rəhbəri Kayoko Qoto bildirib ki, iyulun əvvəlindən bəri Rusiyanın Ukraynaya hava hücumları nəticəsində 170-dən çox mülki şəxs həlak olub, daha 1028 nəfər yaralanıb, hərbi əməliyyatların şiddətlənməsi isə qlobal ərzaq təhlükəsizliyi üçün ciddi təhdidə çevrilir. Onun sözlərinə görə, yaşayış binaları, uşaq meydançaları, yanacaqdoldurma stansiyaları, bazarlar və logistika anbarlarına zərbələr endirilir, Kiyev daim atəşə tutulur. Təkcə iyul ayında Ukrayna paytaxtında ən azı 56 mülki şəxs həlak olub, 232 nəfər yaralanıb.



### Qarşılıqlı hücumlar mülki insanların ölümünə səbəb olur

Diplomat, həmçinin Donetsk, Xarkov, Sumı, Xerson, Dnepropetrovsk və Zaporojye vilayətlərinin cəbhə bölgələrinə idarə olunan bombalardan istifadə edərək gündəlik hücumlara diqqət çəkib: "Ümumilikdə, müharibə başlayandan bəri 803 uşaq da daxil olmaqla 16 min 141 mülki şəxsin ölümü, 2960 uşaq da daxil olmaqla 48 min 613 nəfərin yaralandığı təsdiqlənib". K.Qoto Ukraynanın digər bölgələrində mülki şəxslər arasında qurbanlardan da bəhs edib. "Bu hücumlar qəbuledilməzdir, əsassızdır və dərhal dayandırılmalıdır. BMT bu cür hücumları harada baş verməsindən asılı olmayaraq daim və birmənalı şəkildə pisləyir", - deyə BMT Departamentinin rəhbəri vurğulayıb. Onun fikrincə, Rusiyanın Qara dəniz limanlarına və ticarət gəmilərinə yeni hücum dalğası qlobal ərzaq təhlükəsizliyi üçün ciddi təhdidlər yaradır. Odessa, Çernomorsk, Yujnı, İzmail və Nikolaev limanları sistematik hücumlara məruz qalır, bu ay isə mülki gəmilərə 6-dan çox hücum qeydə alınıb ki, nəticədə 44 heyət üzvü ölüb və ya yaralanıb.

BMT-nin Ticarət və İnkişaf Konfransının məlumatları göstərir ki, ayın əvvəlindən bəri qlobal buğda qiymətləri 20 faiz artaraq 2024-cü ilin mart ayından bəri ən yüksək səviyyəyə çatıb. K.Qoto, həmçinin Zaporojye Atom Elektrik Stansiyasındakı vəziyyətdən narahatlığını ifadə edib. O xatırladıb ki, iyulun 15-də MAQATE müharibənin əvvəlindən bəri stansiyanın xarici enerji təchizatının 22-ci dəfə tam itirilməsini bildirib, təkcə son üç ayda isə 10 belə hadisə baş verib. BMT nümayəndəsi tərəfləri diplomatik səyləri bərpa etməyə çağırıb: "Bu təhlükəli eskalasiya spiralının davam etməsinə imkan verməməliyik. Bütün iştirak edən tərəfləri de-eskalasiyaya və dərhal, tam və qeyd-şərtsiz atəşkəsə nail olmağa yönəlmiş dialoqu və hərtərəfli danışıqları bərpa etməyə çağırırıq".

Lakin mülki şəxslərin ölümü yalnız Ukraynada baş vermir. Ukrayna ordusunun hücumları nəticəsində Rusiya ərazisində də çoxlu sayda mülki insanlar və infrastrukturlar zərər görür. Rusiya Müdafiə Nazirliyinin iyulun 30-da açıqladığı məlumata görə, gecə ərzində Ukraynanın 258 pilotsuz uçuş aparatı məhv edilib. Dronlar Volqoqrad, Penza, Rostov və Tambov vilayətləri, Adıgey Respublikası, eləcə də Azov və Qara dənizlər üzərində zərərsizləşdirilib. Penza vilayətinin qubernatoru Oleq Melniçenko bildirib ki, "Wildberries" anbarına dron hücumu nəticəsində 1 nəfər xəsarət alıb, 200-dən çox insan təxliyə edilib. Logistika kompleksində yanğın baş verib və təcili yardım bölmələri onu söndürməyə başlayıb.

Penza meri Oleq Denisov yanğından çıxan tüstünün şəhərə yayıla biləcəyi barədə xəbərdarlıq edib və sakinlərə pəncərələrini bağlamağı, açıq havada az vaxt keçirməyi, ev heyvanları ilə gəzintiləri məhdudlaşdırmağı tövsiyə edib. "Wildberries" şirkətinin mətbuat xidməti isə bildirib ki, dron hücumu şirkətin Sarapulda (Udmurtiya) yerləşən logistika obyektində də yanğına səbəb olub. İlkin məlumatlara görə, təlafat yoxdur. Bundan əlavə, Krasnodar diyarının əməliyyat qərargahı bildirib ki, dron qalıqları düşdükdən sonra Temryuk rayonunun Volna kəndindəki müəssisədə yanğın baş verib, 4 nəfər yaralanıb.

Ukrayna Silahlı Qüvvələrinin Rusiyanın Belqorod vilayətinə zərbələri zamanı isə 4 nəfər ölüb, 46 nəfər yaralanıb. Yaralılar arasında vəziyyəti ağır olanlar da var.

*N.BAYRAMLI*

# Ermənistan yenidən dilemma qarşısında...

## Kremlin referendum israrı Paşinyan üçün çəmbəri daraldır

Ermənistanda baş tutan sonuncu parlament seçkiləri onsuz da gərgin olan Moskva - İrəvan münasibətlərini yeni bir mərhələyə daşıyıb. Seçkidən öncə, aprelin ayının 1-də baş tutan Putin-Paşinyan görüşü siyasi kuluarlarda "yumşaq güc nümayişi" kimi xarakterizə olunurdusa, Kremlin rəhbərinə İrəvandan edilən son telefon zəngi birincilərin ultimativ jesti ilə müşayiət olunub. Qeyd edək ki, Ermənistanın Baş naziri Nikol Paşinyan və Rusiya Prezidenti Vladimir Putin telefon danışığı zamanı iki ölkə arasındakı iqtisadi münasibətlərdəki problemlər müzakirə edilsə də, əsas müzakirə predmeti ortadakı gərginliklərdir. Aprelin 1-də keçirilən görüş zamanı Putin yumşaq şəkildə Paşinyanı "Aİ, yoxsa Aİ?" sualına cavab tapmasını təklif edirdisə, bu dəfə artıq praktik sərt qadağalara əl atılır. Telefon danışığı zamanı N.Paşinyan vurğulayıb ki, erməni mənşəli malların Rusiya bazarına ixracına qoyulan məhdudiyyətlər Ermənistan-Rusiya hüquqi bazasına və Avrasiya İqtisadi İttifaqının müddəalarına ziddir. O, həmçinin bu məsələlərin həlli üçün tədbirlər görməyə çağırıb.

Bundan əlavə, Paşinyan Aİ-yə üzvlüklə bağlı referendumun keçirilməsi məsələsinə də toxunub: "Referendumun keçirilməsi Ermənistanın Aİ-yə üzvlük üçün rəsmi müraciət təqdim etməsindən sonra mümkün olacaq".

Bununla yanaşı, Kremlin mətbuat xidməti bildirib ki, telefon danışığı zamanı "Ermənistanda mümkün qədər qısa müddətdə Aİ-yə daxil olmaq və ya bundan sonra da Avrasiya İqtisadi Birliyinin tərkibində qalmaq barədə ümumxalq referendumunun keçirilməsi zərurəti vurğulanıb".

### Qadağalar sərtləşdirilir...

Qeyd edək ki, son aylarda Rusiyanın Ermənistandan idxal olunan müxtəlif məhsullara (gül, konyak, su, meyvə-tərəvəz və s.) qadağa qoyması erməni iş adamları və hökumətinin iqtisadi sıxıntı yaşamasına səbəb olub. İyulun 14-dən 21-dək Ermənistanda təftiş aparan "Rosselxoznadzor" müfəttişləri iyulun 27-dən etibarən Ermənistandan süd məhsullarının ixracına tam qadağa qoyub. Xatırladaq ki, Ermənistanın bəzi şirkətlərinə 2023-cü ildə qoyulan qadağanın 2026-cı ilin aprel ayında ləğv edilməsindən cəmi 3 ay sonra verilən bu qərar ciddi sıxıntılara səbəb olub. Avropada heç bir rəqabət gücü olmayan, Asiya bazarlarına isə çıxışı aylarla sürən mürəkkəb logistika tələb edən, tez xarab olan pendir və süd məhsullarının Rusiya bazarına buraxılmaması Ermənistanın aqrar sektoru üçün ciddi zərbədir. Bu qadağadan Rusiya istehlakçıları zərər görmür - alternativ olaraq Belarus süd məhsulları Ermənistanın ixracı əvəzləyir. İrəvan üçün isə bu qərar həm də Avrasiya İqtisadi İttifaqının (AİI) vahid bazar prinsiplərinin pozulması deməkdir. Məhz bu soyuq diplomatik və iqtisadi təzyiq mühitində Paşinyanın öz təşəbbüsü ilə Kremlə zəng vurması İrəvanın ciddi asılılıqdan əziyyət çəkməsinin göstəricisidir.

### İqtisadi rəqəmlər, yoxsa siyasi iddialar?

Ölkənin ümumi xarici ticarət dövriyyəsi 21 milyard dolları keçib ki, bunun 8,2 milyard dolları AİI üzv dövlətləri ilə olub." - Solomin qeyd edib.

Bu ilin ilk 5 ayının göstəricilərinə gəldikdə isə, Ermənistan Respublikası Statistika Komitəsinin məlumatına görə, 2026-cı ilin yanvar-may aylarında Ermənistanın xarici və qarşılıqlı ticarət dövriyyəsi 2025-ci ilin yanvar-may ayları ilə müqayisədə 0,1 faiz azalaraq 7 864 716,4 min dollara çatıb. Xarici ticarət dövriyyəsi hesabat dövrü üçün AİI ilə 2,338,073,3 min dollar (19 faiz azalma), MDB ölkələri ilə 2,456,164,2 min dollar (17,1 faiz azalma) olub. Maraqlıdır ki, bunun qarşılığında ilin ilk 5 ayında həm Aİ ilə (1,355,131,6 min dollar və ya 45,2 faiz artım), həm də ayrı-ayrı Aİ ölkələri üzrə (Almaniya 33,9 faiz, İtaliya 16 dəfə, Belçika 2,1 dəfə, Fransa 35,5 dəfə artım) göstəricilərdə müsbət saldo müşahidə edilib.

İxraca gəldikdə isə, Ermənistanın 2026-cı ilin yanvar-may aylarında ixracı 2025-ci ilin yanvar-may ayları ilə müqayisədə 3.7 faiz azalıb. Bu göstəricidə də AİI ən çox azalmaya məruz qalan tərəfdir - 3.8 faiz. MDB ölkələri ilə 2.3 faiz azalma müşahidə olunub. Rusiya ilə bağlı bu rəqəm 1.031.051.6 min dollar və ya 3 faiz civarındadır.

Bunun qarşılığında Aİ ölkələrinə ixracın həcmi artıb - 92,7 faiz. Almaniya ilə 2,4 faiz, İtaliya ilə 33,3 faiz artım mövcuddur.

İdxalın həcmində də AİI ölkələri azalma tendensiyası ilə müşayiət olunur. Rəqəm 28 faiz enib. MDB ölkələri ilə də vəziyyət analojidir - 25,6 faiz azalma qeydə alınıb. İdxalda da Aİ üzrə rəqəmlər artıb - 25,9 faiz.

Göstəricilər hazırda Aİ xeyrinə dəyişsə də, Ermənistanın iqtisadi yönünü daha tez dəyişmə imkanı məhduddur. İqtisadi ekspertlərin fikrincə, Aİ-dən idxal olunan məhsulların qiymətləri daha yüksək olduğu üçün alıcılıq qabiliyyəti əsasən AİI ölkələri məhsulları üzrə daha yüksəkdir.



Mütəxəssislər hazırda Ermənistanın AİI-dən çıxışının ölkəyə olduqca böyük iqtisadi kəsir yarada biləcəyini proqnozlaşdırır. Qeyd edək ki, 2025-ci ildə Ermənistan AİI ölkələrinə 3,2 milyard dollardan çox mal ixrac edib və bu ixracın əksəriyyəti Rusiyaya eksport edilib. Rusiyanın Ermənistandakı ticarət nümayəndəsi Sergey Solomin bu ilin fevralında İrəvanda Qorçakov Fondu tərəfindən təşkil edilən "Avrasiya Dialoqu. Ermənistan" Beynəlxalq Analitik Proqramı zamanı bildirib ki, 2025-ci ilin nəticələrinə əsasən, əminliklə demək olar ki, Avrasiya istiqaməti Ermənistanın xarici iqtisadi əlaqələrində əsası olaraq qalıb.

### Rusiya tələsdirir...

Amma deyəsən İrəvan üçün seçim anı yaxınlaşıb. Veriləcək qərar haqqında soyuq başla düşünmək gərəkir - Ermənistanda referendum keçirilsə və Aİ-yə üstünlük verilsə, Moskva dərhal ucuz qaz və gömrüksüz ticarət imtiyazlarını ləğv edəcək. Bu isə Ermənistanın iqtisadi fiaskosu deməkdir. Təsadüfi deyil ki, telefon danışığı zamanı Rusiya Prezidenti AİI-nin 29 may Astana sammitində dörd liderin (Rusiya, Belarus, Qazaxıstan, Qırğızıstan) qəbul etdiyi birgə bəyanata istinad edərək Kremlin Paşinyandan Aİ referendumunun keçirilmə vaxtını təcili dəqiqləşdirməyi tələb etməsi, Moskvanın Ermənistanın AİI-dən mümkün çıxış prosesinə qabaqcadan mane olmaq və İrəvanı siyasi küncə sıxışdırmaq istəyindən xəbər verir. Moskva yaxşı anlayır ki, İrəvanın Aİ ilə yaxınlaşması təkcə siyasi bəyanatlarla kifayətlənməyəcək, gec-tez AİI-dən imtina ilə nəticələnəcək. Bu səbəbdən Kreml referendum tələbini vaxtından əvvəl masaya qoymaqla Paşinyan hökumətini hələ iqtisadi və təhlükəsizlik baxımından tam hazır olmadığı bir reallıqda "ya Aİ, ya AİI" seçimi etməyə məcbur edir.

*SADİQ*

# Kipr probleminin həllinə dair yeni görüş keçiriləcək

Antonio Quterreş Kiprə ilk səfərindən sonra adanın hər iki icmasının liderlərinin, həmçinin qarant ölkələrin və BMT nümayəndələrinin iştirakı ilə nizamlanma üzrə yeni görüşün keçiriləcəyini elan edib.

AZƏRTAC BMT-nin məlumatına istinadla xəbər verir ki, Nikosiyada jurnalistlərə verdiyi müsahibədə dünya təşkilatının rəhbəri son illərdə Cenevrə, Krans-Montana, Berlin və Nyu-Yorkda danışıqlar aparıldığını xatırladıb.

"Bu kontekstdə Kipr xalqının həll yolu tapmaq səyləri ilə tam həmrəyliyimi ifadə etmək üçün Kiprə gəlmək mənim vəzifəm idi", - deyə Baş katib bildirib.

Quterreşin sözlərinə görə, tərəflər arasında etimadın bərpası üçün bütün səyləri göstərməyin vaxtı gəlib çatıb. O, ada əhalisinin gündəlik həyatını yaxşılaşdıra biləcək etimad quruculuğu tədbirlərinin hazırlanmasının və həyata keçirilməsinin vacibliyini vurğulayıb, iki lideri bu istiqamətdə səyləri artırmağa çağırıb.




Baş katib qeyd edib ki, onun şəxsi elçisi Maria Anxela Olqin həm BMT-nin əvvəlki səylərinə, həm də Kipr xalqının özü ilə qarşılıqlı əlaqələrə əsaslanaraq, tərəflərlə əlaqə saxlamağa davam edir.

Baş katib səfəri zamanı adadakı müxtəlif icmaların nümayəndələri ilə də görüşüb.

"Onların mesajı aydın idi. Onlar irəliləyiş istəyirlər. Onlar liderlərinin güzəştə getməyə və Kipr məsələsinin həlli üçün son addımı atmağa hazır olduqlarını görmək istəyirlər. Onlar bu adada bölünmə ilə deyil, əməkdaşlıq, fürsət və sülhlə müəyyən edilən bir gələcək istəyirlər", - deyə o bildirib.

Quterreş bildirib ki, hər iki liderlə həm ayrı-ayrılıqda, həm də birgə keçirdiyi səmimi və konstruktiv görüşlər zamanı məhz bu abhava hakim olub. BMT-nin rəhbəri əlavə edib ki, Kipr türklərinin lideri Tufan Erhürman və Kipr yunanlarının lideri Nikos Xristodulides onun şəxsi elçisi ilə işləməyə davam etməyə hazır olduqlarını təsdiqləyiblər.

Müzakirələrdən sonra Baş katib "5+1" formatında yeni görüşü təşkil etmək qərarına gəlib. Bu görüşdə Kiprin yunan türk icmalarının, 3 qarant ölkənin (Yunanıstan, Türkiyə və Birləşmiş Krallıq), eləcə də BMT-nin nümayəndələri iştirak edirlər. Lakin Quterreş qarşıdakı danışıqların yalnız diqqətli hazırlıqdan sonra baş tutacağını vurğulayıb.

"Nəticəsiz yeni "5+1" görüşü keçirmək istəmirəm. Bu görüşün uğurlu olmasını və nizamlanmaya yol açmasını istəyirəm", - deyə o, jurnalistlərin suallarını cavablandırarkən bildirib.

Baş katibin sözlərinə görə, görüşün vaxtı hələ müəyyən edilməyib. O qeyd edib ki, beynəlxalq ictimaiyyət də nizamlama prosesini dəstəkləməyə davam etməlidir.

"Birləşmiş Millətlər Təşkilatı sülhü zorla qəbul etdirə bilməz. Amma tamamilə aydın ifadə edim: BMT ada və bütün region üçün bu həlledici məqamda Kipr xalqını dəstəkləməyə tam sadiqdir", - deyə Antonio Quterreş vurğulayıb.

# Hörmüz boğazı uğrunda geosiyasi mübarizə

## İran-ABŞ qarşıdurması dünyanın enerji təhlükəsizliyini necə dəyişir?




Müasir beynəlxalq münasibətlərdə bəzi coğrafi məkanlar var ki, onların əhəmiyyəti dövlət sərhədlərindən qat-qat böyükdür. Hörmüz boğazı belə strateji nöqtələrdən biridir. Dünyada istehsal olunan xam neftin və mayeləşdirilmiş təbii qazın əhəmiyyətli hissəsi bu dar dəniz keçidindən daşınır. Buna görə də burada baş verən hər hansı siyasi və ya hərbi gərginlik təkcə İran-ABŞ münasibətlərinə yox, qlobal enerji bazarına, dünya iqtisadiyyatına və beynəlxalq təhlükəsizlik sisteminə birbaşa təsir göstərir.

Ankara NATO Sammiti fonunda İran ətrafında baş verən hadisələr bir daha nümayiş etdirdi ki, Yaxın Şərq hələ də qlobal geosiyasətin ən həssas bölgələrindən biridir. ABŞ administrasiyasının İran siyasəti, İsrailin təhlükəsizlik maraqları, Körfəz ölkələrinin mövqeyi və beynəlxalq enerji bazarlarında yaranan qeyri-müəyyənlik bu regionu dünya siyasətinin gündəliyində saxlayır. ABŞ və İran arasında tammiqyaslı müharibə ehtimalı aşağı qiymətləndirilsə də, qarşılıqlı təzyiq siyasətinin və dövri eskalasiya risklərinin davametmə ehtimalı yüksəkdir.

Son illər İran-ABŞ münasibətlərində müşahidə olunan əsas xüsusiyyət birbaşa müharibədən yayınmaq, lakin qarşılıqlı təzyiq vasitələrindən istifadə etməkdir. Vaşinqton iqtisadi sanksiyalar, diplomatik təzyiqlər və regional müttəfiqləri vasitəsilə Tehranın təsir imkanlarını məhdudlaşdırmağa çalışır. İran isə cavab olaraq Hörmüz boğazındakı strateji mövqeyindən, regional tərəfdaşlarından və qeyri-simmetrik təhlükəsizlik alətlərindən istifadə edir.

Bu vəziyyət klassik hərbi qarşıdurmadan fərqlənir. Burada əsas məqsəd rəqibi məğlub etmək deyil, onun strateji qərar qəbuletmə imkanlarını məhdudlaşdırmaqdır.

Məhz buna görə də Yaxın Şərqdə baş verən hadisələri yalnız İran-ABŞ münasibətləri çərçivəsində qiymətləndirmək düzgün olmaz. Burada söhbət qlobal enerji marşrutlarına nəzarət uğrunda uzunmüddətli geosiyasi rəqabətdən gedir.

ABŞ üçün Hörmüz boğazının açıq qalması yalnız enerji məsələsi deyil. Bu keçid beynəlxalq ticarətin fasiləsiz işləməsi, müttəfiq ölkələrin enerji təhlükəsizliyi və dünya iqtisadiyyatında sabitliyin qorunması baxımından strateji əhəmiyyət daşıyır. Avropa İttifaqı və Asiyanın iri iqtisadiyyatları da eyni səbəbdən regionda sabitliyin qorunmasında maraqlıdır.

İran isə bu strateji mövqedən özünün təhlükəsizlik siyasətinin mühüm elementi kimi istifadə edir. Tehran anlayır ki, Hörmüz boğazı onun əlində yalnız coğrafi üstünlük deyil, həm də siyasi təsir vasitəsidir. Buna görə də İranın bölgədə atdığı hər bir addım beynəlxalq bazarlarda neft qiymətlərinə və investorların gözləntilərinə dərhal təsir göstərir.

Bu geosiyasi rəqabətin Azərbaycan üçün də əhəmiyyətli nəticələri var. Xəzər hövzəsi və Cənub Qaz Dəhlizi Avropanın enerji təchizatında alternativ marşrut kimi daha çox diqqət cəlb edir. Yaxın Şərqdə gərginliyin artdığı dövrlərdə Azərbaycanın enerji resursları və nəqliyyat imkanları Avropa üçün strateji əhəmiyyət qazanır. Bu isə ölkənin beynəlxalq enerji təhlükəsizliyində rolunu daha da artırır.

Eyni zamanda, Orta Dəhlizin inkişafı, Xəzər üzərindən yükdaşımaların genişlənməsi və Azərbaycan-Türkiyə əməkdaşlığının dərinləşməsi regionun geoiqtisadi əhəmiyyətini yüksəldir. Dünyada ənənəvi marşrutların risk altında olduğu şəraitdə alternativ logistika xətlərinə maraq artır və bu proses Azərbaycana əlavə strateji üstünlüklər qazandırır.

Mövcud vəziyyət göstərir ki, yaxın perspektivdə İran-ABŞ münasibətlərində tam normallaşma gözləmək çətindir. Tərəflər arasında fikir ayrılıqları yalnız nüvə proqramı ilə məhdudlaşmır. Regional nüfuz, təhlükəsizlik konsepsiyaları və geosiyasi maraqlar da iki ölkə arasında münasibətlərin əsas təyinedici amillərindəndir. Buna görə də Yaxın Şərqdə gərginliyin müəyyən fasilələrlə yenidən artması ehtimalı aradan qalxmayıb.

Lakin bu, genişmiqyaslı müharibənin mütləq baş verəcəyi anlamına gəlmir. Daha real ssenari tərəflərin birbaşa hərbi toqquşmadan yayınaraq siyasi, iqtisadi və regional təzyiq alətlərindən istifadəyə davam etməsidir. Belə bir şəraitdə enerji bazarlarında dəyişkənlik, nəqliyyat marşrutlarının təhlükəsizliyi və qlobal iqtisadi risklər beynəlxalq siyasətin əsas mövzularından biri olaraq qalacaq.

Hörmüz boğazı uğrunda geosiyasi rəqabət bir daha göstərir ki, XXI əsrdə təhlükəsizlik anlayışı yalnız hərbi qüvvə ilə müəyyən olunmur. Enerji marşrutlarına nəzarət, logistika xətlərinin qorunması və iqtisadi dayanıqlılıq artıq beynəlxalq güc balansının ayrılmaz hissəsinə çevrilib. Bu reallıqdan ən çox faydalanacaq dövlətlər isə yalnız təbii resurslara malik olan yox, həmin resursları təhlükəsiz və etibarlı şəkildə dünya bazarlarına çatdırmaq imkanına sahib ölkələr olacaq. Bu baxımdan Azərbaycanın geostrateji mövqeyi və həyata keçirdiyi enerji-nəqliyyat siyasəti gələcək illərdə də ölkənin beynəlxalq əhəmiyyətini artıran əsas amillərdən biri kimi qalacaq.



*Kəramət QƏNBƏROV,*
*Beynəlxalq hüquq üzrə ekspert*

# "Avropa sağa dönür"

## Liberal dövrün sonu yaxınlaşırmı?

Son onilliklər ərzində Avropa İttifaqı liberal demokratiyanın, açıq cəmiyyət modelinin və qlobal inteqrasiyanın əsas simvollarından biri sayılırdı. Avropa siyasi elitası bu müddətdə iqtisadi inteqrasiya, sərbəst miqrasiya, multikulturalizm və liberal dəyərlər üzərində qurulmuş inkişaf modelini təşviq edirdi. Bu siyasət uzun illər müəyyən nəticələr versə də, son dövrlərdə cərəyan edən geosiyasi və iqtisadi proseslər Avropa seçicisinin siyasi prioritetlərinə ciddi təsir göstərməyə başlayıb.

Bu gün Avropa ölkələrində keçirilən seçkilərin nəticələri göstərir ki, cəmiyyət əvvəlki siyasi yanaşmaları sorğulamağa başlayıb. Fransa, Almaniya, İtaliya, Niderland, Avstriya və bir sıra digər ölkədə milli maraqları ön plana çıxaran siyasi qüvvələr əvvəlki dövrlərlə müqayisədə daha geniş ictimai dəstək qazanır. Ankara NATO Sammiti ətrafında aparılan müzakirələrdə də bu tendensiyanın Avropanın gələcək təhlükəsizlik siyasətinə təsiri xüsusi qeyd olunurdu.



Dəyişikliklərin səbəbi yalnız ideoloji deyil, əsl səbəb sosial-iqtisadi reallıqlardır. Son illər Avropada enerji qiymətlərinin artması, inflyasiya, istehsal xərclərinin yüksəlməsi, qeyri-qanuni miqrasiya, terror təhlükəsi və sosial təminat sisteminə düşən əlavə yük seçicilərin gündəlik həyatına birbaşa təsir göstərib. İnsanlar artıq böyük ideoloji proqramlardan daha çox konkret nəticələr tələb edirlər. Məhz buna görə də seçici davranışı dəyişir.

Əgər əvvəllər siyasi müzakirələrin mərkəzində insan hüquqları, iqlim siyasəti və Avropa inteqrasiyası dayanırdısa, bu gün əsas müzakirə mövzuları sərhəd təhlükəsizliyi, enerji təminatı, iqtisadi sabitlik və milli maraqların qorunmasıdır. Həm də bu dəyişiklik yalnız millətçilərin heç vaxt olmadığı qədər gücləndiyi Fransaya aid deyil. Almaniyada "Almaniya üçün Alternativ" Partiyasının yüksəlişi, İtaliyada Corcia Meloni hökumətinin formalaşması, Niderlandda sağçı siyasi qüvvələrin uğurları və digər oxşar proseslər göstərir ki, Avropa seçicisi daha praqmatik siyasət tələb edir.

Bu tendensiyanı "Avropa sağa dönür" şəklində qiymətləndirmək mümkündür, lakin məsələ yalnız siyasi spektrin dəyişməsi deyil. Əsas məsələ odur ki, Avropa cəmiyyətləri dövlətin əsas funksiyalarına - təhlükəsizliyin təmin edilməsi, sərhədlərin qorunması və iqtisadi sabitliyin saxlanmasına əvvəlkindən daha çox önəm verməyə başlayıb. Proses Avropa İttifaqının gələcək inkişafına da təsirsiz ötüşməyəcək.

Brüsselin qərar qəbuletmə mexanizmlərində milli hökumətlərin mövqeyi daha da güclənə bilər. Miqrasiya siyasətinə yenidən baxılması, enerji təhlükəsizliyi üzrə yeni yanaşmaların tətbiqi və müdafiə xərclərinin artırılması artıq bir çox ölkədə siyasi konsensus mövzusuna çevrilir. Bununla yanaşı, Avropa İttifaqının dağılması barədə fikirlər də reallığı tam əks etdirmir, İttifaqın iqtisadi və institusional əsasları kifayət qədər möhkəmdir. Lakin gələcəkdə Avropa İttifaqının daha mərkəzləşdirilmiş yox, üzv dövlətlərin milli maraqlarını daha çox nəzərə alan modelə doğru inkişafetmə ehtimalı da artmaqdadır.

Bu proses NATO-ya da sirayət edir. Avropa dövlətləri müdafiə xərclərini artırmağa məcbur olur. Ukrayna müharibəsi göstərdi ki, təhlükəsizlik məsələlərində uzun illərdən bəri formalaşmış rahatlıq dövrü başa çatıb. Artıq Avropa ölkələri təhlükəsizlik siyasətini iqtisadi inkişafdan ayrı təsəvvür etmir. Müdafiə sənayesi yenidən strateji iqtisadi sahə sayılır.

Avropa İttifaqında siyasi prioritetlərin dəyişməsi Azərbaycanın enerji siyasətinə, nəqliyyat layihələrinə və iqtisadi əməkdaşlığına yeni imkanlar yarada bilər. Avropa enerji mənbələrinin şaxələndirilməsinə xüsusi önəm verdiyi üçün Azərbaycanın etibarlı tərəfdaş kimi əhəmiyyəti daha da artır. Eyni zamanda, Orta Dəhlizin inkişafı Avropa ilə Mərkəzi Asiya arasında iqtisadi əlaqələrin genişlənməsində Azərbaycanın rolunu gücləndirir.

Siyasi baxımdan isə Avropada milli maraqların ön plana çıxması Azərbaycan üçün yeni diplomatik imkanlar yarada bilər. Dövlətlər daha çox praqmatik əməkdaşlığa üstünlük verdikcə qarşılıqlı faydaya əsaslanan münasibətlərin inkişafı üçün yeni platformalar formalaşır.

Nəticə etibarilə, Avropada müşahidə olunan proseslər təkcə hökumətlərin dəyişməsi ilə məhdudlaşmır. Bu, bütövlükdə siyasi düşüncə tərzinin dəyişməsinin göstəricisidir. Qarşıdakı illərdə Avropa İttifaqı əvvəlki kimi qalacaq, lakin onun siyasi prioritetləri dəyişəcək. Təhlükəsizlik, enerji, iqtisadi dayanıqlılıq və milli maraqlar artıq Avropa siyasətinin əsas istiqamətlərini müəyyənləşdirən amillər olacaq. Bu dəyişikliklər isə yalnız Avropa üçün yox, onunla sıx əməkdaşlıq edən bütün dövlətlər, o cümlədən Azərbaycan üçün də yeni geosiyasi və iqtisadi reallıqlar formalaşdıracaq.

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**






# Tolerantlıq sabitliyin və inkişafın təməlidir...

Dini və milli tolerantlıq hər bir sağlam cəmiyyətin əsas dəyərlərindən biridir. Fərqli dinlərə, millətlərə və mədəniyyətlərə hörmət insanların birgə və dinc yaşamasına şərait yaradır. Bu dəyər cəmiyyətin sabitliyini möhkəmləndirir, qarşılıqlı etimadı artırır. Azərbaycan tarixən müxtəlif xalqların və din nümayəndələrinin birlikdə yaşadığı məkan olub. Ölkəmizdə fərqli etnik qruplar öz ana dillərini, adət-ənənələrini və mədəni irslərini qoruyub saxlayırlar. Eyni zamanda, müxtəlif dini icmalar sərbəst fəaliyyət göstərir. Bu mühit qarşılıqlı hörmət və anlaşma üzərində qurulub.

Millətlərarası münasibətlərin inkişafı dövlət və cəmiyyətimizin ortaq məqsədlərindən biridir. Bu istiqamətdə həyata keçirilən tədbirlər insanlar arasında dialoqu gücləndirir. Mədəniyyət festivalları, elmi konfranslar və birgə layihələr müxtəlif xalqların bir-birini daha yaxından tanımasına kömək edir. Tolerantlıq isə yalnız qanunlarla təmin edilmir. Bu dəyər ailədə, məktəbdə və gündəlik həyatda formalaşır. Uşaqlara kiçik yaşlardan fərqliliyə hörmət etməyi öyrətmək gələcəyin sağlam cəmiyyətini qurmağa xidmət edir. Hər bir vətəndaşın davranışı bu prosesdə mühüm rol oynayır.


Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi” istiqaməti üzrə hazırlanmışdır**


## Müxtəliflikdən güc alan cəmiyyətlər

Mövzu barədə “Yeni Azərbaycan”a açıqlama verən ilahiyyatçı Ağa Hacıbəyli bildirib ki, insanlıq tarixinin ən böyük sınaqlarından biri fərqliliklərlə yaşamağı bacarmaq olub. Onun sözlərinə görə, dilimiz, dinimiz, irqimiz və mədəniyyətimiz müxtəlif ola bilər, lakin bizi birləşdirən ən böyük dəyər insan olmağımızdır: “Din tarix boyu insanları qarşıdurmaya deyil, qarşılıqlı anlaşmaya, kinə deyil, mərhəmətə, nifrətə deyil, sevgiyə çağırıb. Tarix boyu müxtəlif xalqların və dinlərin nümayəndələrinin qarşılıqlı hörmət şəraitində yaşadığı cəmiyyətlər daha dayanıqlı inkişaf edib, iqtisadi və mədəni yüksəlişə nail olub. Çünki qarşılıqlı anlaşma və etimad mühiti insanların yaradıcı potensialının üzə çıxmasına, yeni təşəbbüslərin reallaşmasına və ictimai həmrəyliyin güclənməsinə əlverişli zəmin yaradır. Müasir dövrdə qlobal problemlər xalqlar arasında əməkdaşlığı daha da vacib edir. Münaqişələrin deyil, dialoqun seçilməsi sülhə və sabitliyə aparan ən doğru yoldur. Dini və milli müxtəliflik cəmiyyət üçün təhlükə deyil. Əksinə, bu müxtəliflik inkişaf və zənginlik mənbəyidir”.

## Rəqəmsal məkanda etimad və həmrəylik

A.Hacıbəyli qeyd edib ki, bu gün sosial şəbəkələrin və rəqəmsal informasiya platformalarının geniş yayılması fonunda cəmiyyətin hər bir üzvü nifrət nitqini, dini və milli zəmində ayrı-seçkiliyi, eləcə də dezinformasiyanın yaratdığı təhlükələri düzgün qiymətləndirməlidir: “Sosial sabitlik yalnız dövlət siyasətinin deyil, eyni zamanda hər bir vətəndaşın məsuliyyətli davranışının nəticəsi kimi formalaşır. Dini tolerantlığın qorunması radikal meyllərin qarşısının alınmasına da mühüm töhfə verir. Maarifləndirmə, dialoq və qarşılıqlı anlaşma bu istiqamətdə ən təsirli vasitələr hesab olunur. Cəmiyyət nə qədər açıq və inklüziv olarsa, bir o qədər dayanıqlı inkişaf əldə edər.

Bu gün milli və dini müxtəlifliyin qorunması yalnız humanitar məsələ deyil. Bu, həm də milli təhlükəsizlik, ictimai sabitlik və davamlı inkişaf strategiyasının ayrılmaz hissəsidir. Dövlət, vətəndaş cəmiyyəti və media bu prosesdə ortaq məsuliyyət daşıyır”.

## Eyni bağda fərqli çiçəklər...

İlahiyyatçı bildirib ki, fərqlilikdən qorxmaq yox, onu anlamağa çalışmaq lazımdır: “Çünki fərqli mədəniyyətlər bir bağçadakı müxtəlif çiçəklər kimidir. Tək bir çiçək gözəl ola bilər, lakin rəngarəng çiçəklərlə dolu bağ daha möhtəşəm görünür. Eyni şəkildə müxtəlif millətlərin və dinlərin sülh içində yaşadığı cəmiyyət də daha zəngin və daha güclüdür.

Bu gün dünyada müharibələrin, ayrı-seçkiliyin və dini radikalizmin artdığı bir dövrdə tolerantlıq sadəcə gözəl bir anlayış deyil, bəşəriyyətin gələcəyini qoruyan mənəvi sipərdir. Tolerantlıq insanın öz dəyərlərinə güvənərək başqasının hüququna hörmət etməsinin ən yüksək ifadəsidir. Unutmayaq ki, insanları bir-birindən ayıran sərhədlər xəritələrdədir. Qəlblər sevgi, mərhəmət və qarşılıqlı hörmətlə dolduqda din də, millət də insanları qarşı-qarşıya deyil, çiyin-çiyinə gətirir”.

*Yeganə BAYRAMOVA*

# XV Qəbələ Beynəlxalq Musiqi Festivalında...

İyulun 29-da Heydər Əliyev Fondunun təşəbbüsü və təşkilatçılığı, Mədəniyyət Nazirliyinin, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının və “Gilan”ın dəstəyi ilə XV Qəbələ Beynəlxalq Musiqi Festivalının açılışı olub.

AZƏRTAC xəbər verir ki, festivalın açılışı Azərbaycanın Xalq artisti Ramiz Məlik-Aslanovun dirijorluq etdiyi Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının Tələbə Simfonik Orkestrinin konserti ilə başlanıb.

Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru, Xalq artisti Fərhad Bədəlbəyli tədbirdə çıxış edərək bildirib ki, artıq 15 ildir bu festival uğurla keçirilir. O deyib ki, bu müddət ərzində dünyanın müxtəlif ölkələrindən tanınmış solistlər, simfonik orkestrlər, xor kollektivləri, dirijorlar və digər ifaçılar Qəbələ səhnəsində çıxış ediblər.

Fərhad Bədəlbəyli vurğulayıb ki, festival çərçivəsində hər il müxtəlif musiqi janrlarını əhatə edən zəngin və maraqlı konsert proqramları təqdim olunur. Qəbələ Beynəlxalq Musiqi Festivalı bu illər ərzində dünyanın aparıcı musiqiçilərini bir araya gətirən nüfuzlu beynəlxalq mədəniyyət tədbirlərindən birinə çevrilib.

Musiqi gecəsində solistlər, Əməkdar artist Elvin Hoca Qəniyev (violin), Aysun Mahmudzadə (soprano), Şəmistan Əliyev (klarnet) və Vaqif Qurbanovun (violonçel) ifasında Azərbaycan və Avropa bəstəkarlarının əsərləri səslənib.

Qəbələ Beynəlxalq Musiqi Festivalı ilə bağlı fikirlərini bölüşən Milli Məclisin deputatı, parlamentin Mədəniyyət komitəsinin sədri Polad Bülbüloğlu deyib ki, Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən biri olan Qəbələdə bu festivalın artıq 15-ci dəfə keçirilməsi mühüm hadisədir.

“Çox sevinirəm ki, festival illərdir davamlı şəkildə təşkil olunur və artıq gözəl bir ənənəyə çevrilib. Belə tədbirlərin yaşadılması və davam etdirilməsi böyük əhəmiyyət daşıyır. Bu festival xüsusilə gənc musiqiçilər üçün mühüm təcrübə və inkişaf platformasıdır. Onlar burada peşəkar təcrübə qazanır, öz istedadlarını nümayiş etdirmək imkanı əldə edir və beynəlxalq musiqi mühitinin bir parçasına çevrilirlər. İnanıram ki, bu ənənə gələcək illərdə də uğurla davam edəcək”, - deyə o əlavə edib.

Xalq artisti, dirijor Ramiz Məlik-Aslanov bildirib ki, Qəbələ Beynəlxalq Musiqi Festivalına əvvəlki illərdə də qatılsa da, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının Tələbə Simfonik Orkestri ilə ilk dəfədir çıxış edir.

“Bu festivalda ilk dəfə öz orkestrimlə səhnəyə çıxmaq mənim üçün böyük qürurdur. Bakı Musiqi Akademiyasının böyük gələcəyinə inanıram. Orkestrimizdə çıxış edən gənclər bu gün çox həyəcanlı olsalar da, onların hər biri istedadlı və peşəkar inkişaf yolunda əzmlə çalışan musiqiçilərdir. Sevindirici haldır ki, gənclərin klassik musiqiyə marağı getdikcə artır. Bu gün nümayiş etdirdiyimiz proqramın arxasında uzun və zəhmətli hazırlıq prosesi dayanır. Biz bu festivala dörd il ərzində məqsədyönlü şəkildə hazırlaşmışıq və bu zəhmətin nəticəsini tamaşaçılar qarşısında təqdim etməkdən məmnunuq”, - deyə Xalq artisti vurğulayıb.

“GabalaFest” çərçivəsində “Mədəniyyətlərin qovşağı” adlı ilk beynəlxalq incəsənət sərgisi keçirilib. Sərgi Azərbaycan, Çin, Almaniya, Macarıstan, Qazaxıstan, Koreya Respublikası, Rusiya, Türkiyə, Türkmənistan, Birləşmiş Krallıq və Özbəkistandan 30-dan çox tanınmış incəsənət ustasını bir araya gətirir. Layihə rəssamlıq, heykəltaraşlıq və fotoqrafiya vasitəsilə mədəniyyətlər, ənənələr və nəsillər arasında bədii dialoqu təşviq edir.






Ekspozisiyada dünyanın müxtəlif ölkələrindən tanınmış sənətkarların bədii ustalığı və mədəni dialoqu əks etdirən əsərləri təqdim olunur. Sərgidə sənətkarlar Akmal Nur, Alpısbay Kazqulov, Arif Əziz, Ayan Əziz Məmmədova, Ayləl Heydərova, Cavlon Umarbekov, Ceff Robb, Cəsar Məmmədov, Devid Beqbi, Elşad H. Əliyev, Jambul Natbayev, Jen Quansyu, Qəhriman Qoçmıradov, Leyla Əliyeva, Məzahir Rüstəmov, Nigar Bağırova, Ömər Eldarov, Rafael Əliyev, Refik Aziz, Rəşad Mehdiyev, Röya Həsən, Sakit Məmmədov, Səfrəndə Abdullayeva, Səmədağa Cəfərov, Şəhla Qəhrəmanlı, Tamaş Yanoş Molnar, Tolkın Tabısbek, Ülviyyə Həmzəyeva, Yonqmo Cunq, Yonq Vu Li, Yens Hesse və Yuristanbek Şıqayev iştirak edirlər.

Ekspozisiyanın diqqətçəkən əsərləri sırasında Azərbaycanın Xalq rəssamı Arif Əzizin ritmik kompozisiyaları xüsusi yer tutur. Onun yaradıcılığı Azərbaycan müasir təsviri sənətinin parlaq nümunələrindən biri hesab olunur və milli-mədəni irsi Qərb modernizminin estetikası ilə üzvi şəkildə birləşdirir.

Təbiət - sərginin əsas mövzularından biri Leyla Əliyevanın qara-ağ kompozisiyalarında diqqəti cəlb edir. Bu əsərlərdə qanadları eskizə bənzər motivlərlə işlənmiş nəfis arılar naxışlı yarpaqlar üzərində təsvir olunub. Yüksək dekorativliyi və zəngin ornamentləri ilə seçilən bu kompozisiyalar təbiətin gözəlliyini və kövrəkliyini poetik şəkildə əks etdirir.

Ekspozisiyada folklor və mifologiya motivləri də mühüm yer tutur. Qədim İpək Yolunun mədəni irsindən ilhamlanan rəsm və heykəltaraşlıq əsərlərində təsvir olunan əfsanəvi qəhrəmanlar əsrlər boyu müxtəlif sivilizasiyaları birləşdirən ortaq hekayələri yaşadır. Sərgi yaradıcılıq prosesini tamaşaçıların da iştirak etdiyi təcrübəyə çevirən iki interaktiv instalyasiya ilə qalereya divarlarının hüdudlarını aşır.

Leyla Əliyevanın bədii dilindən ilham alan “Xromatik rezonans” instalyasiyasında ziyarətçilər böyükmiqyaslı birgə sənət əsərinin yaradılmasında iştirak edəcəklər. “Baxış ağacı” isə qonaqları öz ümidlərini, arzularını və planetimizin gələcəyi ilə bağlı düşüncələrini bölüşməyə dəvət edəcək və festival boyunca instalyasiyanın üzvi şəkildə formalaşmasına imkan yaradacaq.

Sərgidə iştirak edən rəssamlar arasında Ayləl Heydərova da yer alır. Onun özünəməxsus yaradıcılığı Azərbaycanın təbiətindən və zəngin mədəni irsindən ilhamlanan atmosferik mənzərələrdə puantilizm və modernist təsirləri birləşdirir. Rəssam, eyni zamanda, ekoloji təmiz materiallardan hazırlanmış rəngarəng kəpənək heykəlləri silsiləsini təqdim edir. Bu əsərlər həm bədii yenilikçiliyi, həm də ətraf mühitin qorunmasına həssas yanaşmanı əks etdirir.

Qeyd edək ki, Rut Millinqton incəsənət tarixçisi, kurator, aparıcı və “MUSE” (“Penguin”), “Bu kitab sizi rəssam edəcək” (“Nosy Crow”) və “İncəsənət elmi” (DK) kitablarının müəllifidir. O, London Art Fair və Oksford İncəsənət Festivalının kuratoru olub, həmçinin BBC Radio 4 və Sky Arts üçün sənədli layihələr hazırlayıb və təqdim edib.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4515
Sifariş: 960
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova